www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 sentyabr 2018-ci il Cümə № 188 (7077) Qiyməti 60 qəpik

**Xəbər**

## Zaqatalada hamilə ana narkozdan ayılmadı

yazısı səh.14-də

**Gündəm**

### Dünyanın diqqəti Tehranda



Bu gün Putin, Ərdoğan və Ruhaninin bir çox aktual məsələlərlə bağlı kritik görüşü olacaq

yazısı səh.8-də

### Prezidentdən şəffaflıqla bağlı mühüm qərar

yazısı səh.6-da

### Deputatın ittihamlarına XİN-dən reaksiya

yazısı səh.10-da

### Növbədənkənar parlament seçkiləri müzakirələri yenidən başladı

yazısı səh.7-də

### Güzəştli mənzil satışında 28 dəqiqə müəmması

yazısı səh.10-da

### Hökumətin enerji sektorunu özəlləşdirməməsinin səbəbləri

yazısı səh.12-də

### Ölkədə narkomanların sayında qorxunc artım

yazısı səh.3-də

### Tramp haqda anonim yazı Ağ Evi qarışdırdı

yazısı səh.4-də

### Erməni cüdoçular Bakıya gəlmədən "yıxıldılar"

yazısı səh.5-də

### GUAM-ı "diriltmək" cəhdi - üzv ölkələrin XİN rəhbərləri görüşəcək

yazısı səh.7-də

### İrandan xəbərdarlıq: ya neft satışı, ya nüvə silahı...

yazısı səh.5-də

# PAŞİNYAN PAT VƏZİYYƏTDƏ - RUSİYA ONU "AYAĞINDAN ASACAQ"

Ermənistanın baş naziri Putinlə sabaha planlaşdırılan səfəri öncəsi sensasion tələb alıb; erməni nazir "dar ağacına" doğru gedir, Putin isə belə məsələlərdə "ayağından asmağı" daha üstün tutur...




yazısı səh.9-da

# Bakı Şəhər Baş Polis İdarəsində Aşura müşavirəsi

Bakı polisi və Dini Komitə birgə toplantı keçirdi, general Səhlab Bağırov Məhərrəmlik ayında asayişin qorunması ilə bağlı zəruri tədbirlərin həyata keçiriləcəyini bildirib

yazısı səh.5-də



### Vəkilindən Akif Çovdarov haqda sensasion açıqlama

yazısı səh.3-də




### Hərbi-siyasi müşavirin səfir göndərilməsinin pərdəarxası

yazısı səh.9-da



### Qurban Qurbanovun sınağı - Allah utandırmasın!

yazısı səh.13-də



## Ərdoğan yenə Bakıya gəlir

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Azərbaycana rəsmi səfər edəcək.**

Bu haqda xəbəri Türkiyə KİV-ləri yayıb. Səfər barədə əlavə məlumat verilmir. Ərdoğan iyulun əvvəllərində Azərbaycana səfər etmişdi və bu, Türkiyə prezidentinin 24 iyun seçkilərindən sonra ilk xarici səfəri idi.

## Türkiyəyə köçən azərbaycanlıların sayı açıqlandı

**Türkiyə Statistika Komitəsi bu ölkəyə köçən əcnəbilərin siyahısını açıqlayıb.**

Virtualaz.org Türkiyə KİV-lərinə istinadən xəbər verir ki, aparılan araşdırmalara görə, 2017-ci ildə Türkiyəyə yaşamağa gələn şəxslərin sayı ötən illə müqayisədə 22,4 faiz artaraq 466 min 333 nəfər təşkil edib. Ən çox axın olan şəhər isə İstanbuldur - bir ilə 166 min 44 nəfər.

Türkiyəyə köçən hər dörd nəfərdən biri isə iraqlıdır. 2017-ci ilin statistikasına görə, qonşu ölkəyə üz tutan İraq vətəndaşlarının payı ümumi sayın 26,6 faizini təşkil edib. 10,4 faiz Əfqanıstan, 7,7 faiz Suriya, 5,7 faiz Azərbaycan və 5,6 faiz isə Türkmənistanın payına düşür.

Türkiyədən köçən əcnəbi əsilli şəxslər arasında da iraqlılar üstünlük təşkil edir - 20,4 faiz. Növbəti yerlərdə isə 7,5 faizlə Azərbaycan, 6,7 faizlə Suriya, 4,6 faizlə Əfqanıstan və 4,5 faizlə Çin vətəndaşları gəlir.

## Gəncədə boşanmaq istəyən arvadını qətlə yetirən saxlanıldı

**Gəncədə həyat yoldaşını qətlə yetirən şəxs saxlanılıb.**

"Report"un məlumatına görə, sentyabrın 5-də Gəncə şəhər Kəpəz rayonu ərazisində həyat yoldaşı, 1995-ci il təvəllüdlü Aytac Aslan qızı Tanrıverdiyevanı qətlə yetirən, 1991-ci il təvəllüdlü Elvin Arzu oğlu Nəbizadə tutulub.

Qeyd edək ki, E.Nəbizadə məhkəmə binasının önündə, ondan boşanmaq istəyən həyat yoldaşı A.Tanrıverdiyevanın qarşısını kəsərək üzərində gətirdiyi bıçaqla onun döş qəfəsinə çoxsaylı bıçaq zərbələri vurub. Qadın yaxınlarının köməyi ilə avtomobilə qoyularaq Gəncə şəhər Abbas Səhhət adına 1 saylı Xəstəxanaya aparılsa da onun həyatını xilas etmək mümkün olmayıb.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi açılıb, araşdırmalar davam etdirilir.

## Oktyabrın 11-də bütün dünyada internet rabitəsi kəsilə bilər

**Domen adlarının və IP ünvanların idarə edilməsi üzrə Korporasiya (ICANN) oktyabrın 11-də bütün dünyada internet şəbəkəsinin işində nasazlıqlar ola biləcəyini bəyan edib.**

Həmin gün kriptoqrafik açarlar (domen adlarının müdafiə sistemi) dəyişdiriləcək. Bununla əlaqədar olaraq, bir sıra istifadəçilərin şəbəkəsində web-səhifələrə girişlə bağlı çətinliklər ola bilər.

Belə prosesin tarixdə ilk dəfə həyata keçirildiyi bildirilir.

## KTMT Azərbaycan üçün yaxşı meydançadır?

**Rusiyalı siyasətçi, Rusiya Elmlər Akademiyasının Avropa İnstitutunun direktor müavini Sergey Fyodorov hesab edir ki, KTMT Qarabağ probleminin həlli üçün yaxşı meydança ola bilər.**

Virtualaz.org-un müxbiri ilə söhbətində o qeyd edib ki, bu köhnəlmiş münaqişənin həlli üçün bütün imkanlardan, həmçinin KTMT meydançasından istifadə etmək lazımdır.

Eyni zamanda ekspert vurğulayıb ki, Azərbaycan və Ermənistan iki düşmən ölkədir və onların bir təşkilatda necə yola gedəcəklərini anlamır.

"İstənilən halda, bu problemin həlli üçün bütün variantları sınamaq lazımdır", - o qeyd edib.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Lütfi Zadənin ölümündən bir il ötdü

**Dünya şöhrətli azərbaycanlı alim, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin və qeyri-səlis məntiqin banisi, Kaliforniya Universitetinin professoru Lütfi Zadənin ölümündən bir il ötür. Lütfi Zadə 2017-ci il sentyabrın 6-da Kaliforniyada vəfat edib.**

O, vəfatından əvvəl Azərbaycanda dəfn edilməsi ilə bağlı vərəsə məktubu yazıb. Alimin nəşi sentyabrın 29-da Azərbaycana gətirilərək I Fəxri xiyabanda dəfn edilib.

Lütfi Zadənin qəbirüstü abidəsini heykəltəraş, xalq rəssamı Ömər Eldarov hazırlayıb.

Xatırladaq ki, Lütfi Zadə 1921-ci il fevralın 4-də Bakı şəhərində anadan olub. Lütfi ilk təhsilinə Bakıdakı 16 saylı məktəbdə başlayıb. 10 yaşında ikən ailəsi ilə birlikdə Bakını tərk edərək Tehrana köçüb. Orta təhsilini tamamladıqdan sonra o, Tehran Universitetinin Elektrik mühəndisliyi fakültəsinə daxil olub. Böyük alimin Amerika həyatı isə 1944-cü ildən başlayıb. O, 1948-ci ildə Amerikada universitetin elektron mühəndisliyi üzrə magistr, 1957-ci ildə isə professor dərəcəsi alıb.



Bu gün dünya elminə Lütfi Zadənin 6 mühüm nəzəriyyəsi məlumdur. Hazırda onlar elm və istehsalatda geniş şəkildə tətbiq olunur. Ona dünya şöhrəti qazandıran, onun dünya elmində inqilab hesab olunan qeyri-səlis məntiq nəzəriyyəsidir. Bu nəzəriyyə riyaziyyatın əsası olan ikili çoxluq anlayışına yeni ifadə verib: qeyri-səlis çoxluq. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaradır.

## Azərbaycan Ukraynanın əsas neft ixracatçısı oldu

**Azərbaycan son səkkiz ayın nəticələrinə görə, Ukraynanın əsas neft ixracatçısı olub. Bu ölkədən Ukraynaya 273,9 milyon dollar dəyərində xammal daxil olub.**

Bu barədə Ukraynanın Dövlət Fiksal Xidməti məlumat yayıb.

Bildirilir ki, göstərilən dövrdə Əlcəzairdən Ukraynaya 7,1 milyon dollar, İrandan 5 milyon dollar, digər ölkələrdən isə 2,4 milyon dollar dəyərində neft ixrac edilib.

Bu dövrdə Ukraynadan neft və neft məhsullarının ixracı qeydə alınmayıb.

2018-ci ilin yanvar-avqust aylarında Ukraynaya 288 milyon dollar dəyərində neft ixrac edilib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 12,9 faiz çoxdur.



## Qusarda 10 nəfərlik dəstə saxlanıldı

**Qusarda illərdir quldurluq edən dəstə polis tərəfindən saxlanılıb. "Qafqazinfo" xəbər verir ki, Qusar Rayon Polis Şöbəsində qeydə alınan 17 mənzil oğurluğu və bir quldurluq hadisəsinin bu günlərdə aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində ələ keçən 10 nəfər rayon sakini tərəfindən törədildiyi müəyyənləşib.**

Cinayətkar dəstənin 2015-ci ildən hazırkı dövrə qədər Qusar rayonunda ayrı-ayrı mənzillərdən pul, zinət və məişət əşyaları oğurladığı aşkarlanıb. Üç il ərzində törədilən hadisələr nəticəsində vətəndaşlara ümumi məbləği 100 min manat dəyərində olan ziyan dəyib. Qrupun 3 üzvü isə quldurluq hadisəsi törətməkdə təqsirli bilinir.

İlkin araşdırmalara görə, cinayətkar dəstə 2015-ci ildə 5, 2016-cı ildə 6, 2017-ci ildə 3, 2018-ci ildə isə 4 cinayət hadisəsi törətməkdə təqsirli bilinir. Dəstə üzvlərindən bir nəfəri Şıxzada Şıxıyev 2017-ci ildə dünyasını dəyişib. Hazırda Qusar rayon PŞ tərəfindən saxlanılan 10 nəfərdən 7-si barəsində həbs-qətimkan tədbiri seçilib, 3 nəfər isə nəzarətə götürülüb. Dəstə üzvlərinin digər cinayət hadisələrində də iştirak etməsi araşdırılır.



## Borca görə axtarışda olan 20 nəfər saxlanıldı

**Sentyabrın 5-dən 6-dak daxili işlər orqanlarında qeydə alınmış cinayət və hadisələr haqqında statistik məlumat açıqlanıb. Daxili İşlər Nazirliyindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 107 cinayət faktı qeydə alınıb, onların da 26-ı "isti izlər"lə açılıb. Əvvəlki dövrlərdən bağlı qalmış 17 cinayətin açılması təmin olunub.**

Axtarışda olduğuna görə ümumilikdə 37 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 20 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 4 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 3 nəfər ölüb, 1 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 9, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 26 nəfər saxlanılıb.

## Azərbaycanlılar Gürcüstanda yol qəzasına düşdü

**Gürcüstanda Qırmızı körpü avtomagistralında ağır yol qəzası olub. "Report"un Gürcüstan bürosunun xəbərinə görə, yolun Rustavi şəhərindən keçən hissəsində şəxsi marşrut taksisi və "Lada" markalı minik maşını toqquşub. Nəticədə 11 azərbaycanlı xəsarət alıb.**

Xəsarət alanların qohumları "Report"a bildiriblər ki, marşrut taksisində olan 8 azərbaycanlı Lecbəddin kəndindən Tiflisə yas mərasiminə gedirmişlər.

Xəsarət alanlar Rustavi Şəhər Mərkəzi Xəstəxanasına yerləşdiriliblər. "Gürcüstanın Rustavi şəhərində yol qəzasında xəsarət alanların vəziyyətləri orta-ağırdır".

Bu barədə Rustavi Şəhər Mərkəzi Xəstəxanasının travmatoloqu David Baçilava bildirib.

Onun sözlərinə görə, xəstəxanaya qəzada xəsarət alan 11 azərbaycanlı yerləşdirilib: "Onların 3-nün vəziyyəti orta ağır olsa da, həyatlarına təhlükə yoxdur. Onlar əməliyyat olunacaqlar. Digərləri isə ilkin tibbi yardım və müayinədən sonra evə buraxılacaq".

D.Baçilava qəzada xəsarət alan bir Azərbaycan vətəndaşının vəziyyətinin çox ağır olmadığını və onun da əməliyyat olunacağını bildirib.



## Bu gün Bakıda 31 dərəcə isti olacaq

**Azərbaycan ərazisində sentyabrın 7-nə olan hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında sabah hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək.

Havanın temperaturunun Abşeron yarımadasında gecə 18-23, gündüz 28-32, Bakıda gecə 20-22, gündüz 29-31 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 40-45 faiz təşkil edəcək.

Abşeronun şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) dəniz suyunun temperaturu 24-25, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) isə 25-26 dərəcə isti təşkil edəcək. Şimal-şərq küləyi əsəcək.

Azərbaycanın rayonlarında sabah hava şəraitinin yağmursuz keçəcəyi, lakin axşama doğru bəzi dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Tibbi-meteoroloji proqnoza gəlincə, sentyabrın 7-də Abşeron yarımadasında sabit hava şəraiti gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018

# Ölkədə narkomanların sayında qorxunc artım

## 18 yaşdan aşağı uşaqların da "ağ ölümə" qurşanması halları var...

**Azərbaycanda narkomanların sayı sürətlə artır. Bununla bağlı Səhiyyə Nazirliyinin açıqlamasında deyilir ki, hazırda Azərbaycanda 30 min nəfər narkoman var. Məsələnin ən acınacaqlı tərəfi budur ki, narkotik istifadə edənlərin böyük əksəriyyəti 18-25 yaş arasında olanlardır.**

Hələ 2015-ci ildə baş nazirin müavini, Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov rəsmi statistikanın reallığı əks etdirmədiyi bildirmişdi. "Bu gün də o fikirdəyəm ki, ölkədə narkomanların sayı ilə bağlı rəsmi statistika reallığı əks etdirmir " deyə, Əli Həsənov qeyd etmişdi.

Müstəqil ekspertlər də komissiya sədrinin fikirləri ilə razıdırlar. Narkomanların sayının rəsmi statistikadan 10 dəfədən artıq olduğunu bildirirlər. Qeyd edirlər ki, rəsmi statistikaya alınan narkomanlar hüquq-mühafizə orqanları tərəfindən saxlanılanlar, narkotik aludəçiliyi üzərindən müxtəlif xəstəliklərə yoluxub tibb müəssisələrinə müraciət edənlərdir. Yeni narkomanların sayının müəyyən olunması üçün faktiki real mexanizm yoxdur. Odur ki, say məsələsi mübahisəlidir və rəsmi rəqəmlərdəki artım ümumi mənzərənin acınacaqlı olmasından xəbər verir.

Əli Həsənov komissiya sədri olaraq narkomanlar, bu sahə ilə bağlı ara-sıra açıqlamalar verir. Məsələn, narkotiklərin Azərbaycana haradan daxil olması, konkret olaraq hansı rayonlarda bölüşdürülərək Azərbaycanda satışa çıxması haqda danışır.

**Onun dediklərindən sitat:** "Azərbaycan bu istiqamətdə tranzit ölkədir. Azərbaycanın iqtisadi inkişafı, dünyada olan mövqeyi beynəlxalq mafiyanın diqqətindədir. Azərbaycandan daşınan narkotiklərin 90 faizi əfqan mənşəlidir. Ölkəmizin beş cənub rayonu, Astara, Lənkəran, Cəlilabad, Masallı, Biləsuvar rayonlarına İran tərəfindən əfqan mənşəli narkotiklər daxil olur. Ölkəyə daxil olan narkotiklərin 80 faizi həmin beş rayondan daxil olur. Ölkəmizə daxil olan narkotik vasitələr Şirvan və Cəlilabad rayonlarında cəmləşir və oradan paylanılır".

Bəs narkoaxının qarşısını almaq, Azərbaycan vətəndaşlarını bu bəladan xilas etmək vəzifəsini daşıyan Dövlət Komissiyası bunun üçün hansı addımlar atıb?

Təəssüf ki, Əli Həsənov mətbuat qarşısına çıxıb narkomanlar və narkotranzitlə bağlı media nümayəndələrinin suallarını cavablandırmaqdan yayınır.

Dövlət Komissiyasının saytında da bu suallara cavab yoxdur. Sayt faktiki işlək deyil. Narkomanların sayındakı qorxunc artımın səbəblərinin izahını verə biləcək rəsmi şəxs susur.

Bundan başqa, bilinmir ki, dövlət büdcəsindən Dövlət Komissiyasının fəaliyyəti üçün nə qədər vəsait ayrılır, həmin vəsaitin xərclənməsi istiqamətləri haqda da məlumatlar yoxdur.



Bunun əvəzində saytda ötən əsrin 80-ci illərini xatırladan tədbirlərdən fotolar, videoxronikalar paylaşılır. İldə 2 dəfə də ölkədə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələrinə dair məlumat açıqlamaqla işi bitmiş hesab edirlər.

Dövlət Komissiyasının yaydığı son məlumat 2018-ci ilin 6 ayı ərzində ölkədə narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri haqdadır.

**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunda ümumiləşdirilmiş məlumat belədir:**

"İlin 6 ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq-mühafizə orqanları tərəfindən 1853 fakt aşkar edilib ki, onlardan 525-i satış məqsədilə qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri və ya prekursorları əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma, 1180-i satış məqsədi olmadan narkotik vasitələri, psixotrop maddələri və onların prekursorları qanunsuz olaraq əldə etmə və saxlama, 118-i qanunsuz olaraq narkotik xassəli bitkiləri kultivasiya etmə, 30-u isə digərləri təşkil edib. Aşkar edilmiş faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 1 ton 585 kq 686,765 qr müxtəlif növ narkotik vasitələr, o cümlədən 6958 ədəd çətənə kolu müsadirə olunub.

Müsadirə olunan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının 510 kq 752,924 qr marixuana, 199 kq 523,602 qr tiryək, 803 kq 880,072 qr heroin, 51 kq 356,945 qr həşiş, 16 kq 215,884 qr digərləri , 2 kq 886,845 qr psixotrop maddələr, 2510,732 prekursorlar, o cümlədən 2 kq 256,4 qr güclü təsir edən maddə, 1 kq 480,2 qr zəhərli maddələr, 0,01 qr Lizerqit (LSD) (0,7x0,7 ölçülü 140 ədəd karton lövhə), 397 flakon mydrax 100% və 4961 ədəd həb təşkil edib.

Həmçinin Daxili İşlər Nazirliyinin təşkilatçılığı və Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti qurumların iştirakı ilə 384 ha 44 sot ərazidən 78 ton 883 kq 897 qr (158 min 034 ədəd) narkotik tərkibli bitkilər yaşıl kütlə halında yığılaraq məhv edilib.

Cinayət məsuliyyətinə 1287 nəfər cəlb edilib ki, onlardan 4-ü 18 yaşadək, 89-u 18-25 yaşadək, 163-ü 26-29 yaşadək, 1031-i 30 yaşdan yuxarı, o cümlədən 16-sı fəhlə, 1070-i işləməyənlər, 3-ü qulluqçu, 1-i vəzifəli və ya maddi məsul şəxs, 1-i kənd təsərrüfatı işçisi, 471-i əvvələr cinayət törətmişlər, 10-u əvvəllər xüsusi qeydiyyatda olanlar, 1271-i kişilər, 16-sı qadınlar, 35 nəfəri isə xarici ölkə vətəndaşları olub. Əcnəbilərdən 19-u İran İslam Respublikası, 6-sı Rusiya Federasiyası, 5-i Gürcüstan, 2-si Ukrayna, 1-i Türkiyə, 1-i ABŞ, 1-i isə İrlandiya Respublikasının vətəndaşı olub.

Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin 31.12.2017-ci il tarixinə olan məlumatına əsasən, Mərkəzdə 30 min 131 nəfər qeydiyyatda olub ki, onlardan 25 min 139 nəfəri dispanser, 4 min 992 nəfəri profilaktik qeydiyyatda olanlardır. Onlardan 595 nəfəri qadın, 212 nəfəri toksikoman, 21 min 38 nəfəri (470 nəfər qadın) inyeksion narkotik istifadəçilərdir. 2017-ci ildə 2 min 115 nəfər yeni qeydiyyata götürülüb, 1432 nəfər isə qeydiyyatdan çıxarılıb.

Səhiyyə Nazirliyi QİÇS-lə Mübarizə Mərkəzinin məlumatına əsasən 2018-ci ilin 6 ayı ərzində Azərbaycanda İİV-ə (İnsanda İmmunçatışmazlığı Virusu) yoluxması yeni aşkar olunan insanların sayı 306 nəfər təşkil edib. Onlardan 298-i Azərbaycan vətəndaşı, 8-i isə əcnəbilərdir.

Ümumilikdə, Azərbaycanda ilk dəfə İİV infeksiyasının aşkar olunmuş 1987-ci ildən 01 iyul 2018-ci il tarixinədək Respublika QİÇS-lə Mübarizə Mərkəzində İİV infeksiyası təsdiq olunmuş 7061 nəfəri qeydiyyata götürülmüşdür ki, onlardan 6833-ü Azərbaycan vətəndaşı, 228-i isə əcnəbidir, İİV-ə yoluxmuş insanların 5137-si kişi, 1924-ü qadındır.

İİV-ə yoluxması təsdiq olunmuş 7 min 61 nəfərdən 3 min 103-də İİV-ə yoluxma inyeksion narkotik istifadəsi nəticəsində baş verib. Onlardan 2 min 250 nəfər dispanser qeydiyyatındadır. 01.07.2018-ci il tarixinə ART-yə cəlb olunmuş İİV-li xəstələrin ümumi sayı 4 min 568 nəfər təşkil edib. Onların da 1853 nəfəri İNİ olub. 2018-ci ilin 6 ay ərzində isə ART-yə cəlb olunan 360 pasiyentdən 48 nəfərində İNİ aşkar edilib.

2018-ci ilin II rübü ərzində Daxili İşlər Nazirliyi tərəfindən Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə göndərilmiş şəxslərin sərxoşluq hallarının bütün növlərinin təyini məqsədilə aparılan tibbi müayinədən 7710 nəfər keçmişdir. Onlardan 902 nəfəri narkotik vasitələrin istifadəsinə görə müayinə olunmuş və 447 nəfər istifadəçi aşkar olunaraq qeydiyyata götürülüb. 810 nəfər stasionar müalicəyə qəbul olunub. Onlardan 183 nəfəri "Alkoqol qəbulu nəticəsində psixi və davranış pozuntuları", 627 nəfəri "Opioidlərin qəbulu nəticəsində psixi və davranış pozuntuları"diaqnozu ilə müalicəyə qəbul edilənlərdir. Eyni zamanda digər müalicə proqramı üzrə fəaliyyət göstərən iki məntəqədə proqram çərçivəsində 262 xəstə müalicə alır. Onlardan 204 nəfəri Respublika Narkoloji Mərkəzində, 58 nəfər isə QİÇS-lə Mübarizə Mərkəzindədir".

**Hesabat yaymaqla narkomanların sayının azalacağına ümid etmək sadəlövhlükdən başqa bir şey deyil. Qorxunc statistik məlumatları nəzərə alıb effektiv tədbirlər görmək vaxtıdır.**

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**



# Vəkilindən Akif Çovdarov haqda sensasion açıqlama

## "Həkim dedi ki, onun sağalması üçün real bir şey etmək mümkün deyil"

**Vəkili sentyabrın 6-da ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovla görüşüb.**

Bu barədə modern.az-a onun hüquqlarını müdafiə edən Kamandar Nəsibov məlumat verib. K.Nəsibov müvəkkilinin səhhətinin pisləşdiyini açıqlayıb: "Təxminən bir həftə əvvəl Çovdarovun səhhətində ciddi problem yarandı. Onun həyatı təhlükədə idi. Onu müayinə etmək üçün həkim belə yox idi. Biz şikayət edəndən sonra bir həkim çağırdılar. Həkim gəldi baxdı, bildirdi ki, bu xəstəlik zon şəraitində müalicə edilə bilməz. Həkim dedi ki, onun sağalması üçün real bir şey etmək mümkün deyil.

Əvvəldən də bilindiyi kimi, Akif Çovdarov bir sıra xəstəliklərdən-ürəyin işemik çatışmazlığı, ürəyin ritmik pozğunluğu, ürək aritmiyası, həmçinin xərçəng xəstəliyindən əziyyət çəkir. Ürəyinin hər an dayanması riski daşıyır. Eyni zamanda müvəkkilimin mədəsi kəsilib. Onun hələ də həbsdə saxlanılmasını işgəncə kimi qəbul etmək olar. Beynəlxalq aləmdə belə xəstəlik daşıyan xəstəyə cəza versələr də, cəzanı dondururlar və onu müalicə üçün evinə buraxırlar. Müalicə tam başa çatanadək hökmün icrası dayandırılır. Bizdə də praktikada belə hallar olub. Amma bunun Çovdarova tətbiqinin qarşısı alınır. Onun səhhəti üçün təhlükə indi də davam edir".

Hüquq müdafiəçisinin sözlərinə görə, ailə üzvlərinin, yaxınlarının Akif Çovdarovla görüşü üçün qanunun verdiyi səlahiyyətlər çərçivəsində riayət edilir:

"Sonuncu dəfə həkimlər onu müayinə etdikdə bildirdilər ki, Çovdarovun bu şəraitdə müalicə olunması mümkün deyil. Çovdarov burada digər məhkumlarla birgə cəza çəkir. Asudə vaxtlarında müəyyən olunmuş yerlərdə açıq havada onlarla birgə gəzişir. Amma vaxt onun səhhətinin əleyhinə işləyir".

Qeyd edək ki, A.Çovdarov 2015-ci ilin noyabr ayında həbs edilib. O, müxtəlif maddələrlə ittiham olunaraq, 12 müddətinə azadlıqdan məhrum edilib.

YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018

**Rusiya aviasiyası sentyabrın 4-də İdlibi bombalamağa başlayıb. Hava zərbələri vilayətin əsasən şərq rayonlarını, Hatay və Laziqiyyə rayonlarına yaxın yerləşən Cisr əş-Şuğur rayonundakı terror obyektlərinə endirilib.**




# İdlib düyünü: Amerika Əsədlə barışır - iddia

## İdlib əməliyyatının taleyinə bu gün Tehranda aydınlıq gətiriləcək

Rusiya Müdafiə Nazirliyinin sözçüsü, general İqor Konaşenkov deyib ki, sentyabrın 4-də Rusiyanın Suriyadakı Xmeymim hava bazasından havaya qalxan 4 ədəd SU-35S bombardmançı təyyarə İdlibdə ən-Nusraya məxsus nöqtələri bombalayıb. Hava zərbələri terrorçuların qaldığı yerlər, həmçinin dronları saxladıqları anbarlara və bir qədər əvvəl Xmeymim bazası, eləcə də Hələb və Hama şəhərlərinə dron hücumu həyata keçirdikləri mərkəzə endirilib. Onun sözlərinə görə, hava zərbələri zamanı 47 dron vurularaq məhv edilib. Bazalarda hava hücumundan müdafiə silahlarının olduğu da bildirilib. Konaşenkov bombardmandan əvvəl terrorçuların obyektlərinin dəqiqləşdirildiyini və dəqiq hədəflərin vurulduğunu deyib.

Bu arada rusların Xmeymim hərbi bazası İdlibdən hücuma məruz qalıb. Hərbi bazaya yönəldilən iki pilotsuz aparat Rusiya HHM tərəfindən vurularaq salınıb. Xatırladaq ki, bir neçə ay əvvəl də İdlibdən Suriya ərazisindəki Rusiya aviabazasına dron hücumu təşkil edilmişdi. Nəticədə bomba ilə yüklənmiş dronla hava bazasındakı təyyarə və zenit-radar qurğularına ciddi zərər vurmuşdu. Ümumiyyətlə, son aylarda Suriyada və digər bölgə münaqişələrində dronlar terror məqsədilə istifadə olunmağa başlayıb. Silahlılar dronlara bomba bağlayır və onu müvafiq nöqtələrə yönləndirirlər.

Yeri gəlmişkən, Rusiya aviasiyasının hücumundan sonra Suriya ordusu da İdlib ərazilərini artilleriya atəşinə tutub. Ancaq əməliyyat sonrakı günlərdə davam etməyib, fasilə yaranıb. Hətta bəzi ərəb media orqanları fasilənin xarici təzyiqlərlə əlaqədar olaraq yarandığını iddia edib.

Ancaq Suriya milli uzlaşma naziri Əli Heydər İdlibə hərbi əməliyyatın sülh danışıqlarından daha real göründüyünü bildirib. Nazir bunu İdlibdəki terrorçuların anlaşmaya yaxın olmaması ilə izah edib. Bu həm də Suriya hakimiyyətinin İdlib barədə mövqeyini göstərir. Nazir deyib ki, İdlib digər bölgələrdən fərqlənir, ona görə də bura əməliyyat qaçılmaz olacaq. Həqiqətən də Suriyada baş verənləri izləyənlər bilir ki, son bir ildə xüsusən də son əməliyyatlar zamanı Suriyanın mərkəzindən cənubuna qədər müxtəlif rayonlardan silahı yerə qoyan, ancaq hökumətə təslim olmayan terrorçular İdlibə köçürülüb. İndi isə Dəməşq Rusiya ilə birlikdə İdlibə əməliyyat keçirməyə hazırlaşır. Bu o deməkdir ki, İdlibdə qalanlar ölüm-dirim savaşına girir, yaxud da Türkiyəyə qaçmalı olacaqlar. Nazir Əli Heydər 500 nəfərə yaxın insanın İdlibdə hökumətlə danışıqlara razılaşdığı üçün silahlılar tərəfindən həbs olunduğunu bildirib.

Bu arada BMT məlumat yayıb ki, İdlibdə olan 3-4 milyon insanın 10 faizə qədəri qaçqın düşə bilər. Qaçqınlar isə coğrafi şərtlərə əsasən yalnız Türkiyəyə sığına bilər. Bu isə Ankara üçün əlavə başağrısı və problemdir. Bu səbəbdən də Ankara Suriya hökumətinə İdliblə bağlı xəbərdarlıq edib.

İdlib əməliyyatı ilə bağlı ABŞ və Fransa da öz narahatlıqlarını bildiriblər. Prezident Donald Tramp bildirib ki, İdlibdə hərbi əməliyyatların başlaması dinc əhalinin qırılmasına səbəb ola bilər. Bu isə ABŞ-ı narahat edir. Eyni zamanda o, Əsəd qüvvələrinin kimyəvi silah işlədəcəyi təqdirdə ABŞ ordusu tərəfindən vurulacağını bildirib. Oxşar açıqlama Fransadan gəlib. Fransa baş qərargahı bəyan edib ki, İdlibdə kimyəvi silahdan istifadə olunarsa, o zaman Suriyadakı hədəflər vurulacaq.

Qeyd edək ki, hazırda Suriya ərazisində, əsasən də kürdlərin nəzarət etdiyi bölgələrdə ABŞ və Fransa hərbi qüvvələri mövcuddur. Ancaq maraqlıdır ki, dünyanın daha bir qüdrətli dövləti - Almaniyanın baş naziri fərqli açıqlama verib. Kansler Angela Merkel bildirib ki, İdlibdə vəziyyət "mürəkkəbdir". Kansler bildirib ki, bir tərəfdən İdlibdəki mülki əhalini qorumaq, o biri tərəfdən isə oradakı terrorçulara qarşı mübarizə aparmaq lazımdır. Merkel deyib ki, bu mövzuda Putin və Ərdoğanla da danışıb. O hesab edir ki, İdlibdəki radikal qruplara qarşı mübarizə aparılsa da, mülki əhali qorunmalıdır.

Ötən gün isə Suriya prezidenti Bəşər Əsəd Dəməşqdə ABŞ Virciniya əyalətinin senatoru Riçard Bleklə görüşüb. Mediada yer alan məlumata görə, B.Əsəd ABŞ-ın dağıdıcı rolundan danışıb. Amerikalı senator isə Suriyanın bəzi bölgələrində artıq normal həyatın bərpa olunduğunu gördüyünü və ölkə ərazisində sülhün, sabitliyin yenidən bərpa olunmasına, terrorun yox olmasına ümid etdiyini deyib. Senator R.Blekin prezident Əsədlə yanaşı məclis sədri Həmmudə Sabbağ və Əsədin siyasi müşaviri Buseyna Şabanla görüşdüyü bildirilir. Lakin senatorun Dəməşqə hansı niyyətlə getdiyi məlum deyil.

Qeyd edək ki, bir neçə gün əvvəl Livan mətbuatı bu ilin iyun ayında ABŞ kəşfiyyatının bir neçə təmsilçisinin Dəməşqə gələrək Suriya kəşfiyyatının rəisi Əli Məmlüklə görüşdüyü haqda xəbər yayıb. Həmin xəbərdə qeyd olunurdu ki, amerikalılar Suriya hökumətinə Tənəfdəki hərbi bazanı tərk etməyə və daha bir neçə şərtin qarşılığında Suriyanın cənubundakı (İsrail sərhədləri yaxınlığında - K.R.) İran və Hizbullah qüvvələrini çıxarılması tələbini qoyub. Belə görünür ki, indi amerikalıları Suriyanın gələcək taleyi, Əsədin qalmasından daha çox İranın və onun dəstəklədiyi Hizbullah kimi güclərin Suriyadakı mövcudluğudur. ABŞ-ın müharibədən az sonra bütün əlaqələri dondurduğu Dəməşqə heyət göndərməsi, hətta Trampın yazısında Əsədi Suriya prezidenti adlandırması onu göstərir ki, amerikalılar artıq Bəşər Əsədin qalması ilə barışıblar, Vaşinqtonun Yaxın Şərqdə başqa prioritetləri var.

Qeyd edək ki, İdlib əməliyyatının, ümumilikdə isə Suriya münaqişəsinin gələcək taleyi sentyabrın 7-də Türkiyə, Rusiya və İran prezidentlərinin Tehranda keçiriləcək sammitində bəlli olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Tramp haqda anonim yazı Ağ Evi qarışdırdı

## ABŞ prezidenti "Nyu-York Tayms" qəzetindən o şəxsi tələb edir: "Adını açıqlamağa məcbursunuz!"

**Ağ Evdə vəzifəli bir şəxs "Nyu-York Tayms" qəzeti üçün kimliyini açıqlamadan bir məqalə qələmə alıb.**

Musavat.com Türkiyə mediasına istinadən xəbər verir ki, sözügedən məqalədə ABŞ prezidenti Donald Trampa qarşı administrasiya içində baş qaldıran direniş barədə detallar var.

**Hökumət yetkilisi "Tramp administrasiyası içindəki direnişin parçasıyam" başlıqlı mövqe yazısında aşağıdakıları qeyd edib:** "Tramp gedənə və ya vəzifədən çıxarılana qədər gündəmini və ölkə üçün pis nəticələr doğura biləcək hərəkətlərini səssizcə əngəlləmək üçün çalışırıq".

**Məqaləni yazan yetkilinin adı açıqlanmasa da, cümhuriyyətçilərdən və rəhbərlik içindəki "direnişçi qrupdan" olduğunu bu sözlərlə ifadə edir:** "Bilirəm, çünki mən də onlardan biriyəm. Daha açıq olmaq lazımdırsa, bizimki soldan çıxan bir direniş deyil. Biz rəhbərliyin daha böyük uğur qazanmasını istəyirik. Tramp bir respublikaçı olaraq seçilmiş olsa da, prezident mühafizəkarların mənimsədiyi müstəqil ağıl, sərbəst bazarlar və müstəqil xalq ideallarına yaxınlıq göstərmir".



"Nyu-York Tayms"dakı məqalədə yetkili Trampı "əxlaqsız", "ticarət və demokratiya əleyhdarı" adlandırıb və ABŞ prezidenti haqqında "lazımi qədər məlumat sahibi olmadan, yetişməmiş və zaman-zaman laqeyd qərarlar verməyə meylli" ifadələrindən istifadə edib.

**Məqalədə Ağ Evdəki bir qrup məsləhətçinin də Trampın vəzifədən çıxarılması üçün ABŞ Konstitusiyasının 25-ci əlavə maddəsini gündəmə gətirməyi düşündüyü, amma sonunda vaz keçdiyi də qeyd olunub:** "Amma heç kimsə bu konstitusiya qalmaqalına zəmin hazırlamaq istəmədi. Yəni, bu durum hansısa formada sona çatana qədər rəhbərliyin doğru yola qayıtması üçün əlimizdən gələni edəcəyik".

**Yazı müəllifi "hər tərəfdən idarə olunan prezidentlik" anlayışına xarici siyasətdə Cənubi Koreya və Rusiya ilə münasibətlərdə verilən qərarları nümunə göstərib:** "Prezident Tramp Rusiya prezidenti Vladimir Putin və Şimali Koreya lideri Kim Çen In kimi avtokratlar və diktatorları tərcih edir kimi bir təəssürat yaratmağa çalışır və bizimlə bənzər fikirlərə müttəfiq dövlətlərlə qurulan bağları da lazımi qədər təqdir etmir. Ağıllı müşahidəçilər isə rəhbərliyin geri qalanının fərqli bir qoldan irəlilədiyinin fərqindədir. Bu qol Rusiya kimi daxili işlərə müdaxilə etdikləri üçün cəza aldığı, dünya miqyasındakı müttəfiqlərin rəqib yox, ortaq hərəkət edilən ortaqlar olaraq görüldüyü bir sahədir".

**Tramp bu məqalə ilə bağlı "utancverici" deyib və yazdığı twetlə də "Nyu-York Tayms"a müraciət edib:** "Əgər hakimiyyətdə bu üst səviyyədə təmsilçi həqiqətən də varsa və bu, qəzetin başqa bir fırıldaq qaynağı deyilsə, əgər bu qorxaq adam gerçəkdən varsa, "Nyu-York Tayms" beynəlxalq təhlükəsizlik baxımından bu insanın kimliyini hökumətə bildirməlidir".

Ağ Evin media sözçüsü Sara Hakkabi Sanders da rəsmi açıqlamada sərt bir dildən istifadə edərək, bu kimliyi açıqlanmayan şəxsin "ölkəsi yerinə öz eqosunu Amerika xalqının iradəsinin qabağında tutduğunu" deyib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018

# Bakı Şəhər Baş Polis İdarəsində Aşura müşavirəsi

## Bakı polisi və Dini Komitə birgə toplantı keçirdi, general Səhlab Bağırov Məhərrəmlik ayında asayişin qorunması ilə bağlı zəruri tədbirlərin həyata keçiriləcəyini bildirib

**Ötən sayımızda QMİ-nin Məhərrəm ayının başlaması ilə bağlı toplantısında və Qazılar Şurasının fətvasında Aşura günü təxribat ehtimalı barədə xəbərdarlıq edildiyini yazmışdıq. Həm Şeyxülislam, həm də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi Aşura günü təxribatların ola biləcəyi barədə xəbərdarlıq edib.**




Qeyd edək ki, bu il sentyabrın 11-də Məhərrəm ayı başlayır, Aşur ağunu isə müvafiq olaraq sentyabrın 20-də qeyd olunacaq. Sentyabrın 6-da isə Bakı Şəhər Baş Polis İdarəsində (BŞBPİ) Məhərrəmlik ayı ilə bağlı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) ilə birgə tədbir keçirilib. Toplantıda DQİDK sədrinin müavini Səyavuş Heydərov, həmçinin BŞBPİ rəhbərliyi iştirak edib. DQİDK-dən verilən məlumatda bildirilir ki, tədbirdə Azərbaycandakı dini durum, bu sahədə baş verən proseslər, tendensiyalar, o cümlədən bəzi xarici ölkələr, onların nəzarətində olan mərkəzlər tərəfindən respublikamıza qarşı dini müstəvidə yönəlmiş təhdid və təsirlər müzakirə olunub.

Virtualaz.org-un məlumatına görə, S.Heydərov çıxış edərək bildirib ki, Azərbaycanda ictimai-siyasi, o cümlədən dini durum sabitdir. Onun sözlərinə görə, Azərbaycan dövlətinin din sahəsindəki başlıca vəzifəsi vətəndaşlarımızın dini etiqad azadlığının yüksək səviyyədə təmin olunması, dövlət-din münasibətlərinin tənzimlənməsi və təkmilləşdirilməsidir.

Sədr müavini onu da deyib ki, dini təhlükəsizlik milli təhlükəsizliyin təminatında başlıca yer tutur, eyni zamanda ictimai-siyasi asayişin daha mükəmməl təminatı üçün olduqca mühümdür.



S.Heydərov dini radikalizm və ekstremizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları barədə də ətraflı məlumat verib. Natiq bu sahədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin digər qurumlar, o cümlədən hüquq-mühafizə orqanları ilə sıx əməkdaşlığ etdiyini diqqətə çatdırıb. DQİDK-nın sədr müavini dini radikalizmlə mübarizədə preventiv (qabaqlayıcı), zəruri hallarda isə proflaktik tədbirlərin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb. S.Heydərov onu da qeyd edib ki, zərərli dini ideologiyaların təsirinə məruz qalan şəxslərin ətrafında müvafiq tədbirlər həyata keçirilməklə onların rebilitasiyası və cəmiyyətə reinteqrasiyasına diqqətin artırılması vacib məsələdir.

Daha sonra Bakı Şəhər Baş Polis İdarəsinin rəis müavini, polis general-mayoru Səhlab Bağırov çıxış edərək dini radikalizmə qarşı mübarizədə aidiyyəti qurumlarla, o cümlədən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə fəaliyyətin əhəmiyyətindən danışaraq, bu sahədə əldə olunmuş müsbət nəticələri qeyd edib. S.Bağırov bundan sonra da birgə fəaliyyətin daha da gücləndirilməsi, mütəmadi olaraq məlumat mübadiləsinin, eyni zamanda Məhərrəmlik ayı ilə əlaqədar ictimai-siyasi asayişin qorunması ilə bağlı zəruri tədbirlərin həyata keçiriləcəyini bildirib.

Qeyd edək ki, sentyabrın 5-də DQİDK, QMİ, Lənkəran şəhər və Masallı rayon İcra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə "Dini mərasimlər: ənənəvilik və müasirlik" mövzusunda müzakirələr aparılıb. Tədbirdə çıxış edən komitə sədri M.Qurbanlı deyib ki, QMİ Qazılar Şurasının "Fətva"sına ciddi riayət olunmalı, dini mərasimlər yalnız məscidlərdə keçirilməlidir.

Bundan əvvəlki toplantılarda da builki Məhərrəmlik məclislərində təxribat ehtimalları barədə xəbərdarlıq edilib. Həm QMİ sədri, həm də komitə rəhbərliyi bu barədə xəbərdarlıq ediblər. Doğrudur, ölkədə hazırda ən kütləvi tədbir hesab olunan Aşura günü polis və müvafiq strukturlar gücləndirilmiş iş rejimində çalışır. Ancaq builki xəbərdarlıqların daha ardıcıl olması istər-istəməz iyul ayında Gəncədə baş verən hadisələr və onun ardınca baş verənləri yada salır. Lakin söhbət etdiyimiz ekspertlər bu il Aşura günlərində hansısa çağırış və ya etiraz çıxışlarının olacağı ilə bağlı bir məlumata rast gəlmədiklərini deyirlər. Bütün variantlarda dövlət qurumlarının və dini idarənin Aşura mərasimlərinə bu qədər həssaslığı istər-istəməz diqqət cəlb edir. Hər bir halda, bu gədər xüsusi ayıq-sayıqlıq və gücləndirilmiş rejimin tətbiqi məqsədəuyğundur.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**



# Erməni cüdoçular Bakıya gəlmədən "yıxıldılar"

## **Azad Rəhimov:** "Biz bütün öhdəlikləri yerinə yetirmişik və yaranan situasiya tam başadüşülən deyil"

**Avropa Cüdo Birliyinin prezidenti, Beynəlxalq Cüdo Federasiyasının, eləcə də Rusiya Cüdo Federasiyasının vitse-prezidenti Sergey Soloveyçik Ermənistan cüdoçularının Azərbaycana gəlməkdən imtina etməsinə münasibət bildirib.**

Rusiyalı mütəxəssis Ermənistanın bu addımını düzgün saymadığını bildirib: "Əgər Ermənistan millisi Azərbaycana getməyəcəksə, bu, bizim hamımız üçün geriyə addım olacaq. Cüdo birləşmək üçün meydandır. Biz həmişə mübarizə aparmışıq və aparacağıq ki, idmançılar siyasətdən kənarda qalsın. Biz Yerevanda Avropa çempionatı keçirdik və hər şeyi etdik ki, Azərbaycandan olan idmançılar orada iştirakı qəbul etsin. Himn də çalındı, bayraq da qaldırıldı. Eyni şey Bakıda da oldu. Avropa Oyunlarını xatırlayın. Fikrimcə, vaxt olduqca az qalsa da, bu situasiyanı həll etmək üçün ümid var".

Azərbaycanın gənclər və idman naziri Azad Rəhimov da bu məsələ ilə bağlı Rusiyanın "İTASS" nəşrinə fikirlərini bildirib. O qeyd edib ki, Azərbaycan tərəfi sentyabrın 20-26-da Bakıda keçiriləcək cüdo üzrə dünya çempionatında ermənilərin iştirak etməsi üçün hər şeyi edib:

"Bu dəfə biz bütün zəmanəti vermişik. Göndərdiyimiz sənəd dövlət adından təhlükəsizliyə tam zəmanət və viza dəstəyi üçün təqdim olunub. Məktubun surəti Beynəlxalq Cüdo Federasiyası və Avropa Cüdo Birliyinə göndərilib. Biz bütün öhdəlikləri yerinə yetirmişik və ona görə də indi yaranan situasiya tam başadüşülən deyil.

Ermənistan nümayəndə heyəti birinci dəfə güləş üzrə dünya çempionatı (2007-ci il - S.M.) üçün Bakıya gəlib. Onda Beynəlxalq Olimpiya Komitəsinin nümayəndəsinin iştirakı ilə bizim qonaqlarımızın təhlükəsizliyinə zəmanət verən anlaşma imzalanmışdı. Sonda mən cüdo üzrə yeniyetmələrin Avropa çempionatı ərəfəsində İrəvana getdim. Orada da yenidən İrəvandakı çempionatda bizim cüdoçularımızın iştirak edə bilməsi üçün müvafiq sənədi imzaladıq".

**Azad Rəhimovun sözlərinə görə, sonradan tərəflər vaxt itkisinin qarşısını almaq üçün yalnız hər iki dövlət tərəfindən verilən zəmanət məktubu ilə kifayətlənmələrinə dair razılığa gəliblər:**

"Bu zəmanət məktubu ilə 23 erməni idmançı Bakıdakı Avropa Oyunlarında (2015-ci il - S.M.) iştirak edib. Qayıdarkən idmançılar, o cümlədən onların məşqçilər heyəti yazdı ki, hər şeydən razı qalıblar".

# İrandan xəbərdarlıq: ya neft satışı, ya nüvə silahı...

## Əgər İran noyabrın 4-dən sonra neft ixrac edə biləcəksə, nüvə sazişindən çıxmayacaq, əks halda...

**Avropa İranla nüvə sazişinin qorunması üçün noyabrın 4-dək lazımi tədbirlər görməlidir. Bunu İranın xarici işlər nazirinin müavini Abbas Əraqçı deyib. Onun sözlərinə görə, əgər ABŞ sanksiyalarının bərpa olunmasından sonra Avropa İranla sazişin qorunması üçün zəruri addımlar atmasa, İranın bu sazişdə iştirakının mənası qalmır.**

Nazir müavini bildirib ki, əgər İran noyabrın 4-dən sonra neft ixrac edə biləcəksə, nüvə sazişindən çıxmayacaq.

İranın neft ixracının qarşısının alınması təhlükəsinin nə dərəcə ciddi olduğunu A.Əraqçının bəyanatı bir daha ortaya çıxarmış olub. Bu barədə "Yeni Müsavat"a şərhində **politoloq Qabil Hüseynli** qeyd etdi ki, hazırda İran üçün ən əhəmiyyətli məsələ neft satmaqdır. Çünki neft gəlirlərindən məhrum olması İranın iqtisadiyyatına, əhalinin güzəranına ciddi mənfi təsir edir: "ABŞ-ın Baraka Obama hakimiyyəti zamanında İranla bağladığı nüvə sazişinin İranın nüvə silahına yiyələnməsinin qarşısını ala bilməyəcəyi indi daha çox aydın görünür. Eyni zamanda o da aydın görünür ki, hələ sanksiyaların ilk dalğası belə, İran iqtisadiyyatında böyük gərginlik yaratmaqdadır. Xarici işlər nazirinin müavini Abbas Əraqçının şərt formasında bu açıqlaması əslində bu gərginlikdən doğan narahatlıqdandır. İran hökuməti çox ciddi ehtiyat edir ki, proses bu şəkildə davam etsə və noyabrın 4-dən sonra yeni sanksiyalar da tətbiq edilməyə başlasa, iqtisadi durum daha da ağırlaşar, nəticədə əhali ayağa qalxar və ölkə inqilab dalğası ilə üz-üzə qala bilər. Bu səbəbdən də mümkün olan bütün kompromislərə yavaş-yavaş da olsa getmək iradəsində olduqlarını hiss etdirməyə başlayıblar".

**Politoloqun fikrincə, əgər bu gün İran nüvə sazişindən çıxmayacağını elan edirsə, bu, onu göstərir ki, İran gələcəkdə yeni nüvə sazişinə də gedə bilər:** "Əslində İranın nüvə sazişindən çıxıb-çıxmaması Qərb ölkələri üçün o qədər əhəmiyyətə malik deyil. Əsas məsələ ondan ibarətdir ki, elə nüvə sazişi imzalansın ki, orada həm İranın, nüvə silahına sahiblənməsi imkanları aradan qaldırılsın, həm də İran İslam inqilabının yayılması ilə məşğul olan ideologiyadan əl çəksin. İran isə neftinin satışının qarşısının alınmaması üçün belə bir nüvə sazişinə getmək məcburiyyətində qala bilər. İranın kompromisə getməkdən başqa yolu qalmır. Əks halda, neftini satmaq problemi ciddiləşəcək. İranın hələ ki indiyə qədər təklif etdiyi kompromislər nə ABŞ-ı, nə də onun müttəfiqlərini təmin etmir. Ona görə də Tehran yeni təkliflərlə çıxış etməlidir. Yəqin edəcək".



❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

**Sentyabrın 5-də prezident İlham Əliyev tərəfindən “Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında” fərman imzalanıb.**

# Prezidentdən şəffaflıqla bağlı mühüm qərar

## Sahib Məmmədov: “Bu, korrupsiyanı azaldacaq, şəffaflığı artıracaq, sövdələşmələrin qarşısını alacaq”



“Yeni Müsavat” xəbər verir ki, fərmanda Azərbaycanda modern və çevik idarəetmənin təmin edilməsi, dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və korrupsiyaya şərait yaradan halların aradan qaldırılması məqsədilə əhaliyə göstərilən xidmətlərin elektron qaydada həyata keçirilməsi istiqamətində əhəmiyyətli işlərin görüldüyü qeyd olunur: “Bununla belə, vətəndaşlara xidmət göstərilməsində şəffaflığı və operativliyi təmin etmək üçün əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin tam elektronlaşdırılması, müvafiq informasiya sistemlərinin formalaşdırılması, informasiya texnologiyalarının tətbiqi ilə innovativ idarəetmənin təmin edilməsi, korrupsiya, sui-istifadə və süründürməçilik hallarının qarşısının alınması yönündə bir sıra əlavə tədbirlərin görülməsinə zərurət vardır”.

Göstərilən sahələrdə idarəetmə sisteminin təkmilləşdirilməsini, habelə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) strukturuna daxil olan bir sıra qurumların fəaliyyətinin səmərəliliyinin artırılmasını təmin etmək məqsədilə prezident ƏƏSMN-in informasiya sistemləri əsasında “Mərkəzləşdirilmiş elektron informasiya sistemi” yaradılmasına qərar verib.

Sənədə görə, ƏƏSMN üç ay müddətində öz fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədilə “e-sosial” internet portalının yaradılmasını təmin etməlidir. Nazirlik həmçinin 6 ay müddətində məşğulluq tədbirləri ilə bağlı xidmətlərin elektron şəkildə həyata keçirilməsi məqsədilə “Mərkəzləşdirilmiş elektron informasiya sistemi”ndə məşğulluq altsistemini yaradacaq.

ƏƏSMN 3 ay ərzində “Mərkəzləşdirilmiş elektron informasiya sistemi”nin, “e-sosial” portalının əsasnamə layihəsini, pensiya təyinatının avtomatlaşdırılmasına, bu sahədə xidmətlərin elektron qaydada göstərilməsinə və vətəndaşların sosial sığorta stajının müəyyən edilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı təklifləri hazırlayıb Prezidentə təqdim edəcək.

**ƏƏSMN İctimaiyyətlə əlaqələr şöbəsindən “Yeni Müsavat”a verilən məlumata görə, prezident İlham Əliyevin 5 sentyabr 2018-ci il tarixli fərmanı əmək, məşğulluq və sosial müdafiə sahələrində modern və çevik idarəetmənin, şəffaf və operativ xidmətlərin təşkili işlərinin gücləndirilməsinə xidmət edir:** “Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində dövlət xidmətlərinin elektron texnologiyalar üzərində, tam şəffaf və operativ şəkildə qurulmaqla, həmin sahələrdə innovativ idarəetmənin təmin edilməsi, korrupsiya, sui-istifadə və süründürməçilik hallarının qarşısının alınması Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq aparılan sistemli islahatların mühüm bir istiqamətini təşkil edir. Dövlət başçısının 5 sentyabr 2018-ci il tarixdə imzaladığı ”Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Fərman bu istiqamətdə tədbirlərin daha geniş müstəvidə davam etdirilməsinə, əmək və sosial müdafiə sahələrində modern və çevik idarəetmənin, şəffaf və operativ xidmətlərin təşkili işlərinin gücləndirilməsinə xidmət edir.

Fərmana əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin informasiya sistemləri əsasında “Mərkəzləşdirilmiş elektron informasiya sistemi” (MEİS) yaradılmaqla, üç ay müddətində “e-sosial” internet portalı formalaşdırılacaq ki, bu da nazirliyin fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsinə imkan verəcək. Belə bir portalın - “e-sosial” internet portalının yaradılması Azərbaycan prezidenti tərəfindən ötən ay imzalanmış “Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanın icrası olaraq, nazirliyin tabeliyində DOST (Dayanıqlı və Operativ Sosial Təminat) Agentliyinin və DOST mərkəzlərinin yaradılması üçün zəruri elektron infrastrukturun formalaşmasında xüsusi önəm kəsb edir. Bu infrastruktur əsasında əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələrdə xidmətlərin “bir pəncərə” prinsipi üzrə təkmil və sistemli, sadələşdirilmiş, eyni zamanda bir-biri ilə əlaqələndirilmiş şəkildə, tam şəffaf, operativ və vətəndaşlarla açıq iş şəraitində əhaliyə təqdim edilməsi təmin olunacaq".

**Nazirlikdən onu da bildirirlər ki, həmçinin son fərmana uyğun olaraq “Mərkəzləşdirilmiş elektron informasiya sistemi”ndə məşğulluq altsisteminin qurulması məşğulluq xidmətlərinin elektron şəkildə həyata keçirilməklə təkmilləşməsinə, bu xidmətlərin operativliyinə və şəffaflığına, işsiz və işaxtaranlara daha əlçatan olmasına, məşğulluq xidmətlərinin idarəedilməsi mexanizminin səmərəli təşkilinə şərait yaradacaq:** “Məşğulluq altsisteminin qurulması ölkədə vahid məşğulluq portalının yaradılmasında vacib alət kimi mühüm əhəmiyyət daşıyır”.

**Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədovun sözlərinə görə, əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələri ƏƏSMN-in əsas fəaliyyət istiqamətləridir:** “Bu istiqamətlər üzrə on, bəlkə də yüz minlərlə əhaliyə xidmət göstərilir. Bu fərmandan əvvəl DOST publik hüquqi şəxsin yaradılması haqqında prezident tərəfindən fərman verilmişdi. Hazırda həmin qurumun əsasnaməsi hazırlanır. DOST bir növ ASAN xidmət variantıdır, sadəcə, müstəqil deyil, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərəcək. DOST-un göstərəcəyi xidmətlərin bir çoxunun internet üzərindən təqdim olunması nəzərdə tutulur. Görünür, son fərman bunun təmin olunması məqsədi daşıyır”.

**Liqa rəhbəri deyir ki, nazirliyin göstərdiyi xidmətlərin - pensiya təminatı, əlilliyin müəyyən olunması, məşğulluq sahəsində çoxsaylı xidmətlərin internet üzərindən təqdim olunması iki baxımdan əhəmiyyət kəsb edir:** “Birincisi budur ki, vətəndaşların vaxtına qənaət olunacaq.Yəni işsizlik haqqında arayış almaq üçün vətəndaş mütləq məşğulluq mərkəzinə getməliydi, sistem işə düşəndən sonra buna ehtiyac qalmayacaq. İkinci məqam budur ki, vətəndaşların məmurlarla təmasları minimuma enəcək. Məsələn, ünvanlı dövlət sosial yardımı prosesinin bir hissəsini - ilkin ərizə verilməsi Səlim Müslümov nazir təyin olunanda elektronlaşdırıldı, lakin gəlirlərin hesablanması, təsərrüfatların müayinəsi və sair mərhələlərdə subyektivlik qaldı. Bu kimi xidmətlər tam elektronlaşarsa, təmaslar, deməli, həm də sövdələşmələr müəyyən qədər aradan qalxacaq. Bu isə korrupsiyanın azaldılması və şəffaflığın artırılması demək olacaq. Bu sistemin nə dərəcədə uğurlu olacağını gələcək göstərəcək”.

**Fərmanda pensiya təminatının avtomatlaşdırılması, bu sahədə xidmətlərin elektron qaydada göstərilməsi, vətəndaşların sosial sığorta stajının müəyyən edilməsinə dair qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanaraq prezidentə təqdim olunması da nəzərdə tutulur. Sahib Məmmədov deyir ki, bu sahədə qanunvericilik bazası var:** “Müəyyən qədər elektronlaşdırma da həyata keçirilib, lakin bəzi problemlər var. Yəqin ki, bu sistemin də təkmilləşdirilməsi həyata keçiriləcək”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

# Prezident İlham Əliyev Xorvatiyada

## Prezidentlərin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub







**Xorvatiyada rəsmi səfərdə olan İlham Əliyevin sentyabrın 6-da rəsmi qarşılanma mərasimi olub. Xorvatiyanın dövlət və hökumət nümayəndələri prezident İlham Əliyevə, Azərbaycan nümayəndə heyətinin üzvləri prezident Kolinda Qrabar-Kitaroviçə təqdim olunub.**

Sonra prezidentlərin təkbətək görüşü olub. Görüşdə Azərbaycanla Xorvatiya arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulanıb.

İlham Əliyevin Xorvatiyaya rəsmi səfərinin iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olunub. Söhbət zamanı qarşılıqlı maraq doğuran digər ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Daha sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş olub.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra hər iki ölkənin prezidentinin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub.

“Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Xorvatiya Respublikasının Mədəniyyət Nazirliyi arasında 2018-ci, 2019-cu və 2020-ci illər üzrə mədəni əməkdaşlığa dair Proqram”ı Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov və Xorvatiya Respublikasının mədəniyyət naziri xanım Nina Obuljen Korzinek imzalayıbar.

“Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nu Azərbaycan Respublikasının Xorvatiya Respublikasındakı səfiri Fəxrəddin Qurbanov və Xorvatiya Respublikasının Kənd Təsərrüfatı Nazirliyində dövlət katibi xanım Mariya Vuçikoviç imzalayıbar.

Sənədlərin imzalanması mərasimindən sonra prezidentlər mətbuata bəyanatlarla çıxış edibər.

Prezident İlham Əliyev Zaqrebdə “Xorvatiya Qurbanlarının Səsi-Ağrı Divarı” abidəsini ziyarət edib. Dövlətimizin başçısı abidənin önünə əklil qoydu, Xorvatiya uğurunda canlarından keçmiş insanların xatirəsini ehtiramla yad edib.

YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018

**REAL Partiyasının sədri, ötən ay həbsdən azad edilmiş İlqar Məmmədov vaxtından əvvəl parlament seçkilərinin keçirilməsi tələbi ilə çıxış edib. O bildirib ki, hazırkı vəziyyət parlamentin buraxılması və yeni demokratik seçkilərlə parlamentin formalaşdırılması zərurətini yaradır.**

# Növbədənkənar parlament seçkiləri müzakirələri yenidən başladı

## Yeni seçkilər keçirilməsi təklifinə reaksiyalar gəldi



İlqar Məmmədovun bu təklifinin siyasi partiyalar tərəfindən necə qarşılandığına gəlincə, birmənalı münasibət yoxdur. Məsələn, **ADP sədri Sərdar Cəlaloğlu** bildirib ki, siyasi deyil, hüquqi baxımdan yeni parlament seçkiləri keçirilməlidir. Çünki yeni konstitusiya qəbul olunub, parlamentin səlahiyyətləri dəyişdirilib: "Referendumun nəticələrinə görə mövcud hakimiyyətlə konstitusiya arasında ziddiyyət var və növbədənkənar parlament seçkiləri keçirilməlidir".

**İlqar Məmmədovun irəli sürdüyü fikrin bundan əvvəl də dəfələrlə səsləndirildiyini vurğulayan Sərdar Cəlaloğluna görə, təklifdən asılı olmayaraq növbədənkənar parlament seçkilərinin keçirilməsi vacibdir:** "İlqar Məmmədovun irəli sürdüyü fikir yeni deyil. Referendum keçirildikdən və yeni konstitusiya maddələri qəbul ediləndən dərhal sonra biz bəyanat vermişdik ki, referendumun nəticələrinə görə mövcud hakimiyyətlə konstitusiya arasında ziddiyyət var və növbədənkənar parlament seçkiləri keçirilməlidir. Vaxtilə prezident seçkiləri ilə bağlı bizim verdiyimiz bəyanata da qarşı çıxılırdı, amma sonradan həyata keçirildi".

**Deputat Fazil Mustafa isə "Yeni Müsavat"a bildirdi ki, konstitusiya dəyişikliyi və növbədənkənar prezident seçkiləri parlamentin buraxılması və yeni parlament seçkiləri keçirilməsi zərurətini yaratmır. Növbədənkənar parlament seçkiləri keçirilməsinin vacibliyini söyləyənlərin mövqeyi əslində siyasi istəklərin reallaşdırılması arzusundan doğan siyasi məsələdir:** "Siyasətlə həvəskar kimi məşğul olan insanlar hər dəfə bir mövzu üzərində fikir bildirməyə çalışırlar. Amma bir fikir bildirəndə onu konstitusiya ilə əsaslandırmağa əslində əsası olmayan cəhdlər edirlər. Konstitusiyada dəyişikliklərdə Milli Məclislə bağlı hər hansı bir dəyişikliyi nəzərdə tutan yeni müddəalar qoyulmayıb. Deputatın "Etik qaydaları haqqında" Qanun qəbul olunması məsələsi qoyulmuşdu. Həmin qanun da qəbul olundu. Parlamentlə bağlı başqa bir məsələ nəzərdə tutulmayıb ki, təcili parlament seçkiləri keçirilməsi zərurətini yaratmış olsun. Milli Məclisin buraxılıb, yeni seçkilərin keçirilməsini əsaslandıracaq bir hüquqi və siyasi situasiya yoxdur. Konstitusiya dəyişikliyi də bunu ehtiva eləmir. Sadəcə ara-sıra bəzi şəxslər arzu etdikləri məsələni konstitusion tələb kimi göstərməyə çalışırlar. Fikrimcə, bu, doğru deyil".

**F.Mustafa xatırlatdı ki, Milli Məclis üzvlərindən bir neçəsi başqa vəzifələrə gediblər, bir nəfər vəfat edib. Cəmi 6 deputat yeri hazırda boşdur:** "Bu da çox sayı əhatə eləmir. O baxımdan da növbədənkənar parlament seçkilərinin keçirilməsi zərurəti yoxdur. Amma siyasi məqsədəuyğunluq olarsa, əlbəttə, seçki vaxtından qabaq da keçirilə bilər. İndiki halda isə bunu zəruri edən hansısa konstitusion şərt yoxdur. Konstitusiya dəyişiklikləri Milli Məclisin fəaliyyəti ilə bağlı hansısa konseptual yenilik gətirməyib. Parlamentlə bağlı hər hansı dəyişiklik olmayıb, ili artırılmayıb, strukturu dəyişməyib, qanunverici orqan olaraq səlahiyyətləri artırılmayıb, heç bir əlavə funksiya verilməyib ki, yenidən seçimə ehtiyac olsun. Prezidentliklə bağlı belə dəyişikliklər vardı deyə seçkilər irəli çəkildi".

Qeyd edək ki, Azərbaycanda prezident seçkilərindən sonra parlament seçkilərinin də irəli çəkilə biləcəyi, növbədənkənar parlament və bələdiyyə seçkilərinin eyni vaxtda keçiriləcəyi barədə indiyə qədər mediada xəbərlər yayılıb.

**Bu barədə aprelin sonlarında məlumatlar yayılan zaman hakim Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bəyan etmişdi ki, hazırda növbədənkənar parlament seçkilərinin keçirilməsi məsələsi gündəmdə deyil:** "Birincisi, növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün Azərbaycan Konstitusiyasında dəyişiklik edilməlidir. Bunun üçün də ümumxalq səsverməsi keçirilməlidir. Konstitusiyada parlamentin hansı müddətdə fəaliyyəti ilə bağlı maddə var. Hətta parlament seçkilərinin hansı gün keçirilməsi də konstitusiya ilə müəyyənləşir. İkincisi, 2016-cı ilin sentyabrın 26-da keçirilən səsvermə ilə konstitusiyaya dəyişiklik edilib. Dəyişikliyə əsasən, Milli Məclisin eyni çağırışı bir il ərzində iki dəfə Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Konstitusiya Məhkəməsinin, Ali Məhkəməsinin və Mərkəzi Bankın İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Prezident tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə və qanunda nəzərdə tutulmuş digər məsələlərin öhdəsindən gələ bilmədikdə prezident Milli Məclisi buraxır. Amma hazırda gündəmdə növbədənkənar parlament seçkilərinin keçirilməsi məsələ yoxdur. Yəqin ki, kimsə deputat olunmaq istəyir, ona görə də bu məsələni ortaya atıb".

Hazırda fəaliyyətdə olan V çağırış Milli Məclisə seçkilər 2015-ci ildə keçirilib və deputatların səlahiyyət müddəti 5 ildir. Ölkədə növbəti parlament seçkiləri 2020-ci ildə keçirilməlidir.

**❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# GUAM-ı "diriltmək" cəhdi - üzv ölkələrin XİN rəhbərləri görüşəcək




## Elxan Şahinoğlu: "GUAM-dan indiki əməkdaşlıq səviyyəsindən artığını tələb etmək doğru deyil"

**BMT Baş Assambleyası çərçivəsində GUAM ölkələrinin xarici işlər nazirlərinin görüşü keçiriləcək. "Trend"in məlumatına görə, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov mətbuat konfransında bildirib.**

Nazir deyib ki, BMT Baş Assambleyası çərçivəsində Nyu-Yorkda GUAM - Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilata üzv olan ölkələrin xarici işlər nazirlərinin görüşünün keçirilməsi barədə razılığa gəlinib.

Bu görüşün olacağı barədə yayılan xəbərlərin ardından GUAM-ın taleyi məsələsi bir daha gündəmə gəlib. Bu da təsadüfi deyil. Belə ki, GUAM son zamanlar "ölü" bir quruma çevrilib. Yalnız ara-sıra bu tipli görüşlər olur. Mövcud olduğu 21 il ərzində ciddi bir fəaliyyətinin şahidi olmamışıq. Halbuki yarandığı ilk vaxtlar bu təşkilata ümidlər böyük idi. Hətta quruma üzv ölkələrin vahid ordusunun yaradılacağı deyilirdi. Amma bunların heç biri baş vermədi. Əksinə, GUAM-ın üç üzv ölkəsinin-Azərbaycan, Gürcüstan və Ukraynanın ərazilərində işğal faktoru var. Gürcüstan və Ukrayna əraziləri məhz GUAM mövcud olduğu illərdə təcavüzə məruz qalıblar.

Bu səbəblərdən təşkilatın buraxılması, yaxud başqa formatda yenisi ilə əvəzlənməsi barədə zaman-zaman fikirlər səslənməkdədir. Azərbaycanın qurumda qalıb-qalmaması məsələsi də müzakirə edilir və bu istiqamətdə müxtəlif fikirlər meydana çıxır.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu gedən müzakirələrə bu cür mövqe sərgilədi:** "GUAM-ın fəaliyyəti bir çoxlarının haqlı tənqidinə tuş gəlsə də, təşkilat yaşayır və fəaliyyətini davam etdirir. İl ərzində GUAM-a üzv dövlətlərin xarici işlər nazirlərinin bir araya gəlməsi təqdirəlayiqdir. Bu toplantılarda ərazi bütövlüyü, enerji və ticarət əməkdaşlığı müzakirə olunur. Bu mövzuların hər bir üzv dövlət üçün faydası var. Hələ ki GUAM-ın nüvəsini Gürcüstan-Azərbaycan əməkdaşlığı təşkil edir. Buna baxmayaraq, son illərdə Ukrayna-Azərbaycan əlaqələri də yüksək templə inkişaf edir, enerji əməkdaşlığı və ticarət mübadiləsi artır. Ukrayna Azərbaycanın nəqliyyat imkanlarından da istifadə etməyə başlayıb. Bu prosesdə Moldova bir az zəif görünür. Fikrimcə, GUAM-a üzv ölkələrin prezidentlərinin də yaxın müddətdə görüşünü təşkil etməyə ehtiyac var. GUAM-dan indiki əməkdaşlıq səviyyəsindən artığını tələb etmək doğru deyil. GUAM hərbi bloka çevrilə bilməz, vahid ordu da yarada bilməz. GUAM ölkələrindən üçünün - Moldovanın, Gürcüstanın və Ukraynanın Rusiya ilə münasibətləri soyuqdur. Azərbaycanın isə Rusiya ilə normal tərəfdaşlıq münasibətləri var. Ona görə də Azərbaycan GUAM çərçivəsində Rusiyanı qıcıqlandıracaq addımlar atmamağa çalışır".

**Politoloq hesab edir ki, Azərbaycan GUAM-da üzvlüyünü davam etdirməlidir:** "Bu üzvlük rəsmi Bakının elan etdiyi balanslaşdırılmış xarici siyasətə də uyğundur. Azərbaycan GUAM vasitəsilə beynəlxalq təşkilatlarda ərazi bütövlüyü məsələsini diqqətdə saxlayır. Məsələn, BMT Baş Assambleyası çərçivəsində GUAM ölkələri nazirlərinin görüşü keçiriləcək. GUAM ölkələrinin xarici işlər nazirləri hər il BMT sessiyasında görüşürlər. Bundan başqa, BMT-də GUAM ölkələrinin ərazi bütövlükləri ilə bağlı qətnamənin müzakirəyə çıxarılması da planlaşdırılır. Bu, birbaşa Azərbaycanın maraqlarına cavab verir. Və ya bu günlərdə Yaponiyanın xarici işlər naziri Bakıya gəlmişdi. Yaponiya GUAM-a da maraq göstərir. Təsadüfi deyil ki, bu il sentyabrın 20-də Nyu-Yorkda, BMT Baş Assambleyasının sessiyası çərçivəsində növbəti dəfə GUAM-Yaponiya görüşü keçiriləcək. Yaponiyanın GUAM-la əməkdaşlığı Azərbaycan üçün vacibdir. Çünki bu yolla Yaponiya GUAM-a üzv olan ölkələrin, o cümlədən Azərbaycanın ərazi bütövlüyünə dəstəyini ifadə etmiş olur. GUAM çərçivəsində əməkdaşlığın genişləndirilməsi mümkündür. Kiyevdə təşkilatların katibliyi fəaliyyət göstərir və ortaq layihələr hazırlayır. Digər dövlətlər GUAM-a üzv olmasalar da, müşahidəçi qismində təşkilatın toplantısına qatılır və üzv ölkələrin ortaq çalışmalarına dəstək verirlər".

**❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"**



# Oynaq yazı

Zamin HACI
zaminhaci@gmail.com

"Sən vurmadın, mən yıxılmadım, bəs buna nə oldu?"
*(məsəl)*

**Sosial mənzillərin internet üzərindən satışı 3-cü dəfədən baş tutdu. Hər dəfə alıcılar sayta necə axın edirdisə, sayt çökürdü. Saytın "təkmilləşdirilməsi" haradasa 5-6 ay çəkdi. Üst-üstə üç yüz neçəsə mənzildən söhbət gedirmiş. Evlərin qiyməti əslində elə ucuz sayılmazdı. 3 otaqlının qiyməti 60 min manata yaxın idi, dəqiq yadımda qalmayıb, axtarmağa həvəs olmadı. Ancaq elə bu guya güzəştli mənzillərin üstündə vətəndaşlarımızın qırğın-davaya, saçyolduya çıxması vəziyyətimizin acınacaqlı olmasını göstərir. Yekə bir dövlət idarəsi yarım ildir üç yüz evi satmaq üçün proqram qururdu. Az qalmışdı Bill Qeytsdən, Stiv Cobsun ruhundan-filandan yardım istəsinlər.**

Azərbaycanda mənzil, ev problemi həmişə olmuşdur. Sovetin vaxtından belədir. İnsanlar axmaq sovet projelərində darısqal mənzilləri əldə etmək üçün az qala ölənəcən növbəyə dururdular. Orderi tabutla birgə verirdilər. Sözgəlişi, fikir vermisinizsə SSRİ vaxtı yaşayış binalarının proyektləri arasında "Bakı layihəsi" deyə bir bina tipi yoxdur. Minsk, Moskva, Kiyev, Leninqrad, Daşkənd, Litva və sairə proyektlər var, Bakının adı isə çəkilmir. Çünki Bakıda camaatın mənzilinin olub-olmaması bir nəfərin də vecinə deyildi. Əsas o idi "Azərbaycan iri addımlarla irəliləsin". Yüz minlərlə adamlar "naxalstroy" adlanan gecəqondularda, siçovullar, tarakanlar oynaşan yataqxanalarda, ən yaxşı halda xruşşovka və kommunal mənzillərdə çürüməkdə idilər.

İndi də vəziyyət o vaxtkından fərqlənmir. Mən bir dəfə hesabladım, Azərbaycanda adambaşına düşən orta mənzil sahəsi 7-8 kvadrat metr arasındadır. Balaca türmə otağı, yəni. Hərçənd Avropa ölkələrində hətta türmə də bundan genişdir. O cümlədən sivil dünya standartında, tibbi normalara görə 1 adamın mənzil sahəsi minimum 18-20 kvadrat metr olmalıdır.

Sosial mənzillər üstündə qırğın var, ancaq bizdə iqtisadiyyatın inkişafından danışılır. Dünən bir tikinti şirkətinin 6 fəhləsi Bakıda qaldırıcı krana çıxıb intihar etmək istəyirdi. Bunlara iki ayın maaşını vermirlər. Aylıq 600 manatdan söhbət gedir. Bunu vuraq 6 nəfərə və 2 aya, cəmi 7200 manatın davasıdır. 6 kişi 7200 manata görə ölə bilərdi. Deməli, nə evsizlər xoşbəxt olur, nə o evləri tikənlər. Kimsə xoş gündə deyil. Bunun məsuliyyətini kim daşımalıdır? Əlbəttə, ən yaxşısı "hamımız günahkarıq" deyib yalandan köks ötürməkdir. Şair necə deyibdir? "Hamı günahkardır dünyada ancaq, Dünyada heç kəsin günahı yoxdur". Bah-bah. Sonradan həmin şair elə bu məntiqlə hökuməti dəstəkləyən adamlara şeirlər yazmışdır, təbrik edirik.

Ancaq bir söhbət də var ki, ətnən dırnağın arasına girən iylənib çıxar. Bizdə iylənmək istəməyən gərək millətlə hökumətin ünsiyyətinə çox qarışmasın. Alan razı, satan razı, bizlik bir şey yoxdur. Bir də o krana, dama çıxan növbəti adamlar üçün. Qalan hamı deyir, gülür, rəqs edir. Biz, ümumiyyətlə, rəqsi çox sevirik. Güneyli-quzeyli bütün Azərbaycan oynamaqla məşğuldur. Bizim hətta ən qədim qayaüstü rəsmimiz də - Qobustandakını deyirəm - oynaqlayan adamları göstərir. Belə qəşəng şəkildə bir-birinin belinə əllərini qoyub "Yallı" gedirlər. Yəni hardasa 10 min ildir biz "Səni deyirlər", "Əjdər əmi", "Aynadan gözəl", nə bilim, "Bu qız nə qəşəngdir, ay Allah" *(Allah böyük hərflə yazılmalıdır - Z.H.),* "Ay uçan quşlar" mahnılarına oynamaqla məşğuluq. Böyrümüzdən əsrlər, başı alovlu millətlər keçmişdir. Üstümüzdən tufanlar əsmiş, altımızdan neftlər-qazlar çıxmışdır, lakin bizim tövrümüz dəyişməmişdir. Biz oynayırıq. Biz şən toplumuq.

Yeri gəlmişkən, atalarımız bu prosesin də sözünü yaradıb gediblər: "Sıxıla-sıxıla cənnətə getməkdənsə, oynaya-oynaya cəhənnəmə get". Şedevrdir. Konstitusiya maddəsi fason bir cümlədir.



# Dünyanın diqqəti Tehranda - bu gün Putin, Ərdoğan və Ruhani görüşəcək

## Elçin Mirzəbəyli: "Ya prosesin bütün iştirakçıları arasında uzlaşma olmalıdır, ya da qütblərdən biri sıradan çıxarılmalıdır"

**Sentyabrın 7-də Tehranda Rusiya, Türkiyə və İran prezidentləri arasında növbəti görüş baş tutacaq. Bu görüşün yekunlarına dair prezidentlər birgə bəyanatla çıxış edəcəklər. Bunu Rusiya prezidentinin köməkçisi Yuriy Uşakov deyib. Tehranda Rusiya prezidenti Vladimir Putinin iranlı həmkarı Həsən Ruhani və Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla ikitərəfli görüşləri də nəzərdə tutulub.**

Artıq bütün dünyanın diqqəti cənub qonşumuza yönəlib. Xüsusilə Amerika başda olmaqla, Qərb dünyası bu görüşü daha yaxından izləyəcək. Buna səbəb də Tehran görüşündə əsas müzakirə mövzularından birinin heç şübhəsiz ki, Suriya probleminin olmasıdır. Digər tərəfdən, Qərbin hər üç ölkəyə qarşı tətbiq etdiyi sanksiyaları, eləcə də digər məsələləri prezidentlərin müzakirə edəcəyi sirr deyil.

Ekspertlər 1943-cü ildə II Dünya müharibəsi dövründə Tehranda SSRİ, Amerika və Böyük Britaniya rəhbərləri arasında baş tutan tarixi görüşün təkrarlana biləcəyini qeyd edirlər. O zamankı Tehran görüşündə İkinci Dünya müharibəsinin taleyini həll edən çox ciddi qərarlar qəbul edilmişdi. Bu tipli qərarların sentyabrın 7-də də qəbul edilə biləcəyi yönündə fikirlər səslənməkdədir. Xüsusilə Suriya probleminin həlli yolunda bu görüşün mühüm rol oynaya biləcəyi qeyd olunur.

Amma Rusiya ilə Türkiyə arasında Suriya məsələsində yaranan gərginliyin hələ də davam etməsinin İranda bəzi qərarlarına qəbuluna mane ola biləcəyi vurğulanır.

Bütün bunlardan əlavə, üç ölkə arasında Qərbin sanksiyalarına qarşı "Üçlər ittifaqı"nın yaradılmasının mümkünlüyü barədə də müzakirələr gedir. Azərbaycan ətrafında anti-Qərb koalisiyasının yaradılacağı təqdirdə, bunun ölkəmizə mənfi və müsbət istiqamətlərdə nələr verə biləcəyi yönündə müzakirələr açılıb.

**Politoloq Elçin Mirzəbəyli bu görüşdə Rusiya ilə Türkiyə arasındakı gərginliyin çözüləcəyini düşünür:** "Tehran sammiti hər üç ölkə üçün mühüm əhəmiyyət kəsb edir. Həm də təkcə Suriya böhranının həlli baxımından deyil və bəlkə daha çox ABŞ-ın sanksiyalarına birgə cavab vermək, iqtisadi əməkdaşlığı genişləndirmək baxımından həyati önəm daşıyır. Proseslər sürətlə inkişaf edir və bu səbəbdən hadisələrin gedişini zamana buraxmaq, vaxt qazanmaqla gərginliyin azaldılmasına nail olmaq mümkün deyil. Görüş çərçivəsində Türkiyə ilə Rusiya arasında son günlərdə İdlibin bombalanması ilə bağlı yaranmış problemin çözüləcəyini düşünürəm. Çünki hər iki dövlətin maraqları daha strateji məsələlərə fokslanmağı tələb edir. Suriya böhranının tamamilə həllinə gəldikdə isə təəssüf ki, bu mümkün deyil. Hörmətli Ərdoğanın BMT kürsüsündən səsləndirdiyi məşhur tezisə uyğun desək, "dünya 5-dən böyük olduğu kimi" Suriya ilə bağlı prosesin iştirakçılarının sayı da 3-dən çoxdur. Buna görə də ya prosesin bütün iştirakçıları arasında uzlaşma olmalıdır, ya da qütblərdən biri sıradan çıxarılmalıdır. Hər iki versiya isə hələlik real görünmür. İndiki şəraitdə koalisiyanın yaranacağını düşünmürəm. Bu, qarşıdurmanı ən son həddə çatdıra bilər. Unutmaq lazım deyil ki, Qərb təkcə Amerikadan ibarət deyil. İran, Türkiyə və Rusiyanın ABŞ-ın müttəfiqi olan Almaniya, Fransa kimi ölkələrlə normal münasibətləri var. Digər tərəfdən, ABŞ-ın cəhdlərinə baxmayaraq, siyasi münasibətlərin lap dərinliyində Avropa İttifaqı üzvü olan dövlətlərin böyük əksəriyyəti nə Rusiyanı, nə Türkiyəni, nə də İranı özlərinə potensial təhlükə kimi görmürlər. Digər tərəfdən, Türkiyənin NATO üzvü olduğunu da unutmamalıyıq. Bu baxımdan, zirvə görüşünün daha çox revanş xarakteri daşıyacağını düşünürəm".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli hesab edir ki, Tehran görüşü Suriya müharibəsini daha da alovlandıra bilər:** "Bu görüşdən ilk gözləntim İdlibdə tökülən qanın dayandırılmasıdır. Bu da ilk öncə Türkiyə və Rusiyadan asılıdır. Rusiya Türkiyə-ABŞ münasibətlərinin gərginliyindən istifadə edib, İdlib məsələsində tərəfdaşı Türkiyədən güzəştlər almaq istəyir. Rusiya bilir ki, Türkiyə eyni vaxtda ABŞ və Rusiyaya qarşı gedə bilməz. Qarşı getsə də, bu, Türkiyə üçün çox çətin olacaq. Buna rəğmən Türkiyə Suriya ilə sərhəddə çoxlu zirehli texnika yığır. Göründüyü kimi, Türkiyə İdlib məsələsində israrlıdır. Rəsmi Ankara Rusiyə də bir məxrəcə gəlməsə, bu, Suriya cəbhəsində yeni müharibə ocağının yaranması deməkdir. Bu müharibə ocağının yaranması ilk öncə Suriya xalqının ziyanınadır. ABŞ istəyir ki, Türkiyə ilə Rusiyanın münasibətləri korlansın. Lakin Amerika da istəmir ki, Rusiya və İranın dəstəyi ilə Əsəd rejimi İdlibdə hərbi əməliyyatlar aparsın. İdlib alınsa, əsədçilər Amerikanın nəzarətində olan kürd regionunun sərhədlərində dura caqlar. Bu da gələcəkdə Rusiya-ABŞ toqquşmasına gətirib çıxara bilər. İdlib qarşıdurması Suriyada olan bütün tərəfləri bir-birilərinə atəş açmağa məcbur edə bilər. Bu görüş çətin ki, Suriya müharibəsini bitirsin. Əksinə, bu görüş Suriya müharibəsini daha da alovlandıra bilər. Ümid edək ki, Türkiyə ilə Rusiya razılığa gələcək və İdlibdə qan dayanacaq. Məlumatlara görə, Türkiyə Rusiyaya üç tələb irəli sürəcək. Bu tələbləri Rusiya qəbul etsə, Türkiyə İdlibdə hərbi əməliyyata razılıq verəcək. İstənilən halda Suriyanın gələcəyi haqqında Türkiyə-Rusiya danışıqları gərgin keçəcək. Bütün dünyanın diqqəti bu görüşdədir. Amerika Tehranda keçiriləcək görüşün nəticəsini gözləyəcək. Anti-Amerika koalisiyasının qurulması üçün öncə İdlib düyününü Türkiyə, Rusiya və İran birlikdə açmağı bacarmalıdırlar. Hələlik isə bu görünmür. Bu ölkələr gerçəkdən müttəfiq olmaq istəyirlərsə, İdlib məsələsində bir məxrəcə gəlməlidirlər. Əks halda, Azərbaycan ətrafında anti-Amerika koalisiyasının qurulması reallığa oxşamır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

**Ermənistanın baş naziri Nikol Paşinyan Rusiyaya sabaha planlaşdırılan səfəri öncəsi daha bir şok yaşayıb. Rusiya Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan və Dövlət Nəzarət Xidmətinin rəisi David Sanasaryanın vəzifələrindən uzaqlaşdırılmasını tələb edir.**




# Paşinyan pat vəziyyətdə - Rusiya onu "ayağından asacaq"

## Ermənistanın baş naziri Putinlə sabaha planlaşdırılan səfəri öncəsi sensasion tələb alıb; erməni nazir "dar ağacına" doğru gediPutin r, isə belə məsələlərdə "ayağından asmağı" daha üstün tutur...

"Baş nazir Nikol Paşinyanın həyata keçirdiyi kadr siyasəti ciddi problemlə üzləşib. Ermənistanda hakimiyyətdə təmsil olunan bəzi məmurlar Rusiya üçün qəbuledilməzdir. Onlar uzun illər boyu Rusiyaya, onun hakim elitasının ünvanına təhqiredici çıxışlar edənlərdir. Belə əsas fiqurlardan biri Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan, o biri isə Dövlət Nəzarət Xidmətinin rəisi David Sanasaryandır. Rusiya onların hakimiyyətdə təmsil olunmalarını arzu etmir və bu şəxslərin vəzifədən uzaqlaşdırılmasını açıq şəkildə rəsmi İrəvana bildirib. Rusiya həmin şəxslərə etibar etmədiyini də Ermənistanın hökumət başçısının diqqətinə çatdırıb. Rusiya həmin şəxslərin iki dövlətin maraqlarına zərər vuracağını vurğulayır. Moskva qorxur ki, hərbi-siyasi xarakterli sənədlər belə məmurların vasitəsilə ABŞ-ın əlinə keçə bilər" deyə, "Joxovurd" qəzeti yazıb. ("Report").

Rəsmi İrəvan bu iddia barədə susur, aydındır ki, Kreml də bu cür xəbərləri şərh etməkdə maraqlı deyil. Amma Paşinyan "ağıllanmadıqca" Rusiya ona yerini göstərməyə çalışacaq. Təsadüfi deyil ki, Rusiya prezidentinin köməkçisi Yuri Uşakov da bildirib ki, Ermənistan tərəfinə çoxlu suallar var. "Rusiya tərəfi Putinlə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşündən açıq və ciddi söhbət gözləyir" deyə, Uşakov bildirib. Qeyd olunur ki, Putin və Paşinyan Rusiya ilə Ermənistan arasında müttəfiq münasibətlərinin əsas məsələlərini müzakirə etmək niyyətindədirlər.

Ermənistan mətbuatı daha sonra yazır ki, Nikol Paşinyanı Moskvada çətin görüş gözləyir, çünki Moskva mahiyyətcə ondan Ermənistanın Rusiyadan asılılığının əsaslarının toxunulmazlığını, başqa sözlə, keçmişdə edilən və kriminal oliqarxiyanı - Rusiyanın Ermənistandakı siyasətinin iki onillik ərzində söykəndiyi seqmenti institusional müstəvidə dağıdacaq cinayətlərin təhqiqatının dayandurulmasını tələb edir. Erməni mediası yazır ki, İrəvanda və Moskvada artıq açıq mətnlə münasibətlərdə böhrandan danışırlar.

"Yeni Müsavat" xəbər verir ki, "EurAsia Daily" nəşri isə sentyabrın 6-dakı redaksiya məqaləsində "Paşinyana üçüncü görüş ərəfəsi üç məsləhət" sərlövhəli məqalə dərc edib.

Məqalədə Ermənistanın indiki rəhbərliyinə Dağlıq Qarabağ problemi ilə bağlı incə mesajlar çatdırılıb. Bildirilir ki, yeni rəhbərlik addımlarında Ermənistanın əsas strateji məsələlərindən biri olan Dağlıq Qarabağın taleyini düşünməlidir. Bu mesaj "Rusiya günlərin birində Ermənistandan dəstəyini çəksə, nə ola bilər" kimi başa düşməlidir. Çünki məqalədə cəbhə bölgəsində həssaslığa da eyhamlar var ki, bu da İrəvana xəbərdarlıqdır.

Paşinyana ikinci mühüm mesaj isə tarixən Ermənistanın Rusiya ilə strateji müttəfiq olması barədədir. Bildirilir ki, yeni hakimiyyətin bu müttəfiqlikdən siyasi sapmaları onların özünə ziyan edə bilər. Maraqlıdır ki, Rusiyadan siyasi sapmalardan sonra yazıda ABŞ-ın Ermənistandakı səfiri Riçard Milsin fəallaşması xüsusi qeyd edilir. Riçard Milsin Ermənistan rəhbərliyinin az qala məsləhətçisinə çevrildiyi vurğulanır. "ABŞ səfiri daha irəli gedərək tövsiyə edir ki, erməni iş adamları İran tərəfdaşları ilə işgüzar münasibətlər qurmazdan əvvəl onun rəhbərlik etdiyi səfirliyə müraciət etsinlər". Aydındır ki, ABŞ səfirinin yazıda "yeni Ermənistan" kimi adlandırılan hökumətinə yaxınlığı Kremli çox qəzəbləndirib. Çünki daha sonra Paşinyana aşkar xəbərdarlıq gəlir: "Paşinyana Rusiya paytaxtına çox əhəmiyyətli səfərindən əvvəl üçüncü məsləhət: Qərbə kor-koranə inanmağı düşünmə və ona güvənmə" deyə, məqalədə bildirilir.

Redaksiya yazısında "Joxovurd" qəzetinin anti-Kreml kadrların qovulması tələbini təsdiq edən bəzi nüanslar da diqqət çəkilir. Qeyd olunur ki, Paşinyan çox həssas dönəmdə həm dövlət aparatında, həm xarici siyasət məsələlərini həll edən kadrların seçilməsində diqqətli olmalıdır.

Beləliklə, Rusiya prezidenti ilə qeyri-rəsmi sabahkı görüşdə Paşinyandan Kremlin tələblərinin nə ola biləcəyini belə ümumiləşdirmək olar.

Əvvəla, Putin bir daha erməni baş nazirdən Rusiya ilə münasibətlərdə açıq və səmimi olmasını tələb edəcək. Kreml və xüsusilə onun odioz rəhbəri bu kimi "oyunları" sevmir və cavabı ağır olur. İkincisi, Rusiya prezidenti Paşinyanı Qərbdən uzaq durmağa çağıracaq, ABŞ səfiri və ermənilər üçün çox həssas olan Dağlıq Qarabağ məsələsində bir daha uyaracaq. Nəhayət, Ermənistanın yeni rəhbərliyinin Dağlıq Qarabağla bağlı mövqeyini bir daha dəqiqləşdirəcək.

Bəzi yerli ekspertlərin gözləntilərinə görə, Putin-Paşinyan görüşü razılaşmalar və ya əksinə olarsa, bu, Qarabağın və Paşinyanın taleyində həlledici dəyişikliklərə səbəb ola bilər. Bir şey dəqiqdir ki, Ermənistan "dar ağacına" doğru gedir, Putin isə belə məsələlərdə "ayağından asmağı" daha üstün tutur...

❑ **"Yeni Müsavat"**

# ABŞ-ın Azərbaycana hərbi-siyasi müşaviri səfir göndərməsinin pərdəarxası

## **Sülhəddin Əkbər:** "Bu təyinat onu göstərir ki, qarşıdakı müddətdə Amerika üçün bölgədə hərbi-təhlükəsizlik məsələləri ön planda olacaq"






**ABŞ prezidenti Donald Tramp Azərbaycana səfir postuna Dövlət Departamentində yüksək siyasi vəzifə tutan peşəkar diplomat İrli Litsenberqenin namizədliyini irəli sürüb. İ.Litsenberqer Dövlət Departamentinin hərbi-siyasi məsələlər üzrə Bürosunun baş müşaviridir və bu vəzifəyə 2018-ci ilin yanvarında təyin edilib. Həmin vəzifədə Litsenberqer Büronun idarə edilməsinin bütün aspektlərinə rəhbərlik edir.**

Dövlət katibinin köməkçisinin birinci müavini yerində olmadıqda İrli Litsenberqer onun səlahiyyətlərini icra edir. Litsenberqer bundan əvvəl ABŞ-ın NATO-dakı missiyasının rəhbərinin müavini (2014-2017) olub, Serbiya, Qırğızıstandakı səfirliklərdə işləyib. NATO-nun Əfqanıstandakı baş mülki nümayəndəsinin müavini (2013-2014) olub. Habelə ABŞ-ın Avropa İttifaqındakı missiyasında, Qazaxıstan, Bolqarıstan və Əlcəzairdəki səfirliklərdə, Fransanın Marsel şəhərindəki ABŞ konsulluğunda işləyib. Dövlət katibinin müavininin dəftərxanasında, Yaxın Şərq işləri Bürosunda və Hərbi-Siyasi işlər Bürosunda müxtəlif vəzifələr tutub. Fransız, rus, bolqar və serb-xorvat dillərini bilir.

Litsenberqerin Bakıda səfir təyinatı üçün onun namizədliyi Senat tərəfindən təsdiqlənməlidir...

Qeyd edək ki, indiyə qədər Azərbaycanda fəaliyyət göstərmiş ABŞ səfirləri enerji məsələləri və ya sosial məsələlərlə məşğul olmuş kadrlar idi. Son 15 ildə ilk dəfədir ki, ABŞ prezidentinin Azərbaycana göndərmək istədiyi səfir sırf siyasi-hərbi-təhlükəsizlik məsələləri üzrə mütəxəssisdir.

Bəs məhz bu cür kadrın üzərində seçilməsində hansı məqamlar rol oynayır?

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər "Yeni Müsavat"a şərhində bildirdi ki, hər bir səfir, o cümlədən ABŞ-ın səfiri təmsil etdiyi ölkənin hökumətinin rəsmi təmsilçisidir, eyni zamanda ABŞ-ın dövlət başçısının təmsilçisidir. Amerika kimi böyük strateji düşünən dövlətlərdə səfir təyin olunarkən ilk növbədə iki əsas məsələyə diqqət yetirilir:** "Birincisi, ABŞ-ın səfir təyin edilən ölkəyə, indiki halda Azərbaycana yönəlik siyasətinin prioritetləri nəzərə alınır. İkincisi, təyin olunan şəxsin şəxsi və iş keyfiyyətləri. Yəni ona diqqət edilir ki, ABŞ-ın Azərbaycana yönəlik siyasətinin önceliklərinə təyin olunan səfir nə dərəcədə şəxsi və iş keyfiyyətlərinə, peşəkarlığına görə cavab verir. Bu baxımdan heç şübhəsiz Azərbaycana səfir göndərilmək üçün namizədliyi irəli sürülən yeni səfiri də ABŞ hökumətinin hazırda Azərbaycana yönəlik siyasətinin önceliklərinə və həmin kadrın yuxarıda dediyimi keyfiyyətləri nəzərə alınaraq seçilib. Bu, onu göstərir ki, qarşıdakı müddət ABŞ üçün bölgədə siyasi məsələlər, hərbi-təhlükəsizlik məsələləri ön planda olacaq. Bu da heç şübhəsiz ki, İran məsələsi ilə bağlıdır. İran məsələsi aktuallaşdığı bir dönəmdə Azərbaycan ABŞ üçün strateji önəmi artmış bir ölkədir. 8 mayda Donald Trampın ABŞ-ın İranla imzalanan nüvə sazişindən çıxmasını elan etməsindən sonra İran məsələsi Vaşinqtonun gündəliyində aktuallaşıb. Noyabrın 4-dən isə İrana qarşı sanksiyaların daha ciddi mərhələsi başlayacaq, Amerikanın İrana yönəlik siyasəti yeni bir mərhələyə qədəm qoyub. Bu baxımdan Azərbaycan həm milli, dini, tarixi, mədəni bağları baxımından, həm də İrana qonşu bir ölkə olduğundan ABŞ üçün çox mühümdür. Səfir seçimi də göstərir ki, ABŞ-ın İrana yönəlik siyasətində Azərbaycan çox mühüm rol oynayacaq. Səfirin təyinatında da görünür, dediyim bu məsələlər nəzərə alınıb".

**S.Əkbər vurğuladı ki, səfirin fəaliyyətinin necə olmasında əsas müəyyənedici səfiri təyin edən ölkənin səfirin olduğu ölkəyə yönəlik siyasətinin önçəlikləridir. Səfirin şəxsi və iş keyfiyyətlərindən də çox şey asılıdır:** "Onun göndərdiyi informasiyalar əsasında Vaşinqtonun Azərbaycana yönəlik siyasətində korrektələr aparılması da mümkün və realdır. Səfirin Bakıdan göndərdiyi informasiya və məlumatlar, təkliflər müəyyən rol oynayır".

❑ **Etibar SEYİDAĞA**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018



# "Urus şəhəri"nə qayıdış

Samir SARI

**Mən orta məktəbi bitirəndə rusca iyirmi-otuz söz bilirdim, amma onları bir yerə topayıb cümlə qura bilmirdim. Bildiklərimin bir yarısı da böyük yaşlı məhəllə uşaqlarının əsgərlikdən gətirdiyi sözlər idi.**

İndi bu yazını yazarkən xəcalət çəkə-çəkə xatırlayıram ki, 10-cu sinifdə oxuyanda Polad adlı sinif yoldaşımızı öyrətdik ki, bizə rus dili dərsi deyən Məcnun müəllimdən "jopa" sözünün tərcüməsini soruşsun. O da soruşdu. Məcnun müəllim özünü o yerə qoymadan dedi ki, tənəffüsdə deyərəm. Tənəffüs vaxtı yetişdi, müəllim "do svidaniya" deyib koridora çıxmaq istəyəndə Polad dedi, ay müəllim, mənim sualımın cavabı nə oldu. Məcnun müəllim gözlədi, sonuncu qız da sinifdən çıxandan sonra qapını bağladı və qışqıra-qışqıra sualın cavabını dedi. Özü də üç dəfə...

Bəli, orta məktəbi bitirəndə rusca bir cümlə bilməyən, bildiyi də "samovolka", "dnevalnı", "şkola", "klass", "nastupilo leto"dan ibarət olan bir adam, yəni mən ruscadan çevirdiyi 4 romana (Con Men, "Çingiz xan"; Ceyn Ostin, "Qürur və qərəz"; Çarlz Beyli, Fletçer Nibel, "Mayın yeddi günü", Boris Akunin, "Qara Şəhər"), N qədər qəzet-jurnal materialına baxır və düşünür: bəs bu necə oldu?

Heç nə. Mən rus dilini məcburiyyət üzündən, məktəbsiz-filansız, necə deyərlər, "samouçka" öyrəndim. Ali məktəbdə kurs işi vermişdilər, ədəbiyyatın hamısı rus dilində idi, kurs işi isə ana dilimizdə yazılmalıydı. Məcbur oldum, lüğətlər aldım, xırda-xırda tərcümə edə-edə öyrəndim. Əvvəlcə çox çətin idi, sonra asanlaşdı. İndinin özündə rusca Polad Bülbüloğlu kimi danışa bilməsəm də, hər halda, Folknerin əsərlərindən başqa istənilən mətni tərcümə edə bilirəm (*açığı, Folknerin ruscaya çevrilmiş dili, cümlə quruluşları çox çətindir, güman ki, o, ingilscədə də elə çətin yazıb*).

Elə həmin tələbəlik illəriydi, artıq rusca bir az qırıldada bilirdim. Tələbə yoldaşım Xaləddini Bakıya, onun xəstəxanaya yerləşdirilmiş körpə qardaşıoğluna baş çəkməyə gəldik. Dəmiryol vağzalında düşmüşük, nabələdik, kimdən ünvan soruşuruqsa, bizə rusca cavab verir. Mindiyimiz avtobuslarda, tramvaylarda, mağazalarda elə oldu.

O vaxt beləydi, azərbaycanlılar Bakıda ana dilində danışmaqdan utanırdılar. Şişirtmə-zad yoxdur. Eləydi.

Xəstəxanaların qəbul şöbələrində bizə ana dilimizdə cavab verən olmadı. Zatən, o şöbələrdə işləyənlərin hamısı ya ruslar, ya da ermənilər idi. Tək-tək azərbaycanlı xanımlara da rast olurduq, ancaq onlar da özlərini "çuşka" kimi aparmırdılar, rusca cavab verirdilər. Elə bil, Rostovda, Voronejdəydik.

Xüləs, mənim qırıq ruscamla birtəhər vəziyyətdən çıxdıq, beş-altı xəstəxana gəzdikdən sonra Səidi Qarayev adına uşaq xəstəxanasında tapdıq, axşam da qatara mindik, Bakıya "do svdidaniya" deyib qayıtdıq Gəncəyə. Ertəsi gün Xaləddin Bakı səfərimizi şərh edərkən məni dostlara göstərib dedi, vallah, bu, olmasa mən o urus şəhərində azıb qalacaqdım.

Gerçəkdən də 1988-ci ilə qədər Bakı "urus şəhəri"ydi, hamı övladını məktəbərdə rus bölməsində oxutmaq istəyirdi. Düzdür, çoxu başarılı olmurdu, ana dilində oxuya bilmədikləri kimi rus dilində də oxuya bilmir, eyzən güzəştli "3" alırdılar, amma onların yekə bir üstünlükləri vardı, orada-burada deyə bilirdilər: "Mən rus sektorunda oxumuşam".

Bu isə açıq-aşkar üstünlük idi. Elə çıxırdı ki, "rus sektorunda oxumaq" savadlı olmaq deməkdir. Əslində isə lap ingilis sektorunu bitirərək də bisavad olmaq, Folkneri tanımamaq mümkündür.

İndi baxıram ki, bu rus sektoru söhbəti yenidən dəbə minib. Yaxın-dost tanışlardan, qohum-əqrəbadan övladlarını xəbər alanda eşidirəm ki, rus bölməsinə qoyublar. Özü də kütləvi şəkildə.

Belə getsə, Bakı doğrudan da yenidən "urus şəhəri" olacaq. Yenə də "rus sektorunda oxuyan"lar hamıya rusca cavab verəcəklər. Ona da əminəm ki, onların çoxu yenə də rus dilində ərizə yaza bilməyəcək, ən adi mətni dilimzə çevirə bilməyəcəklər.

Xarici dilləri öyrənmək, onun vasitəsilə dünya ədəbiyyatının incilərini orijinaldan oxumaq məsələsi "sektor-mektor" işi deyil, həvəsə, iradəyə bağlıdır. İstənilən dili sektordan kənarda da öyrənmək olar. Eləcə də sektorda oxumaq hələ avtomatik olaraq həmin dili mükəmməl öyrənəcəyinə təminat vermir.

# Güzəştli mənzil satışında 28 dəqiqə müəmması

**Sentyabrın 5-də keçirilən Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) Yasamal Yaşayış Kompleksində güzəştli mənzillərin satışı prosesində yenidən problem yaranıb. Belə ki, səhər saat 11:00-da başlanmalı olan satış prosesi ləngiyib. MİDA vətəndaşlara müraciət yayaraq olaya bu cür aydınlıq gətirib: "Mənzil seçimi prosesi hazırda dayandırılıb. Proses saat 15:00-dan etibarən aktivləşdiriləcək". Beləliklə, agentlik mənzillərin satışını 4 saat gecikmə ilə həyata keçirib. Bu isə vətəndaşların narazılığına səbəb olub.**

## Osman Gündüz: "Suallardan biri ondan ibarətdir ki, 9 min iddiaçıdan neçəsi sistemə daxil ola bilib?"


Osman Gündüz

Qeyd edək ki, bundan əvvəl də belə bir problem yaşanmışdı. Bu il mayın 7-də MİDA-nın satışa çıxardığı sosial mənzilləri almaq istəyən insanlar ciddi çətinliklə üzləşmişdi. Həmin gün saat 10:00 radələrində sayta daxil olmada problem yaşanmışdı. Bir saatdan sonra problem öz həllini tapsa da, mənzillərin artıq satıldığı məlum olmuşdu. MİDA və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi birgə açıqlama verərək bildirmişdi ki, ilk mənzillərin seçimi mərhələsində "Elektron hökumət" portalında və "Güzəştli mənzil" sistemində vətəndaşların daxilolmalarının və apardıqları əməliyyatların sayı kütləvi xarakter daşıyıb. Buna görə də portal artıq yüklənməyə məruz qalıb və müraciətlərin eyni anda qeydə alınmasında qısamüddətli ləngimə yaranaraq nasazlıq baş vermişdi. Həmin vaxt sistem tərəfindən növbələşdirilən ilk müraciətlər qəbul olunaraq emal edilib, növbəti müraciətlər isə gözləmə mövqeyinə göndərilmişdi.

Beləliklə, suallar ortaya çıxır ki, texnologiyanın yüksək inkişaf etdiyi bir vaxtda mənzillərin satışı ilə bağlı olan sayt niyə yenidən yüklənmələrə tab gətirmədi? Bu məsələdə əsas problem nədir?

**Mövzu ilə bağlı Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz "Yeni Müsavat"a danışıb:**

"Təəssüf edirəm ki, hələ də MİDA yaranmış problemlə bağlı rəsmi bir açıqlama verməyib. Ekspertlərimizin apardığı araşdırmalar onu göstərir ki, yenə də əvvəlki testdən keçirmələrdə yanlışlığa yol verilib. Yəni düzgün hesablanmayıb".

**Ekspert bundan əvvəlki vəziyyətlə indiki vəziyyətin arasında bir fərq olduğunu bildirdi:** "Əvvəlki prosesdə yaranmış problem səhlənkarlığın, məsuliyyətsizliyin, tamam qeyri-ciddi yanaşmanın nəticəsi idi. Sonuncuda isə daha çox məhdudiyyətlər və təhlükəsizliklə bağlı məsələ idi. Əlbəttə ki, təhlükəsizlik məsələləri qorunmalıdır, lakin nəzərə alınmalıdır ki, nə qədər iddiaçı var, eyni anda nə qədər insan sistemə girəcək, nəticə necə olacaq? Bunlar nəzərə alınmadıqda problem yaşanır".

**Osman Gündüz qeyd etdi ki, sonuncu proseslə də bağlı birmənalı fikir yoxdur:** "Yəni MİDA bu saatda keçirilən proseslə bağlı açıqlama yayaraq bildirdi ki, "proses uğurla başa çatdı". Lakin bu açıqlama yetərli deyil. Hesab edirəm ki, prosesin uğurla başa çatdığını göstərmək üçün xeyli suallara cavab verilməlidir.

Suallardan biri ondan ibarətdir ki, saat 15:00-da 9 min iddiaçıdan neçəsi sistemə daxil ola bilib? Hansı səbəbdən sistemə daxil olmaq mümkün olmayıb? İnsanların da əksəriyyəti ondan narazılıq edir ki, sistemə, ümumiyyətlə, daxil ola bilməyiblər. Hansı səbəbdən? Bu məlum deyil.

Araşdırmalarımızdan o da məlum olub ki, 28 dəqiqə ərzində bütün yerlər satılıb. Buna da aydınlıq gətirilməlidir. Ümumiyyətlə, hesab edirəm ki, aidiyyəti bütün qurumlar sistemdəki bütün fayllara baxış keçirməli, suallara cavab verilməlidir. Suallara cavab verilmədən MİDA-nın ədalətli, şəffaf, etibarlı olduğunu demək mümkünsüzdür".

Qeyd edək ki, MİDA məlumat yayaraq bildirib ki, Yasamal Yaşayış Kompleksinin 1, 2, 3, 4 və 5 saylı binalarında güzəştli mənzillərin satışı prosesi uğurla başa çatdırılıb, satışa çıxarılmış 324 mənzilin hamısı artıq seçilib. Seçilmiş mənzillərin 70%-dən çox hissəsi artıq vətəndaşlar tərəfindən uğurla imzalanaraq ərizələri təqdim edilib.

MİDA inzibati binasında yaradılmış operativ qərargahda mənzillərin seçimi prosesi Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, "Elektron Hökumətin İnkişafı Mərkəzi" və "Ernst & Young" şirkətinin nümayəndələrinin iştirakı ilə müşahidə edilib.

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Deputatın ittihamlarına XİN-dən reaksiya

## Hikmət Hacıyev: "Əvvəlcədən bir çox məsələlər barədə məlumat və ya şərh verilmir"

**Milli Məclisin Müdafiə və təhlükəsizlik komitəsinin üzvü, prezidentliyə keçmiş namizəd Zahid Oruc Fransada yaşayan Vidadi İsgəndərlinin youtube.com-a yerləşdirdiyi təhqirlərlə və silahlı mübarizə çağırışları ilə dolu videoçıxışları ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyini tədbirlər görməməkdə ittiham edib.**

"Yeni Müsavat"a açıqlamasında Zahid Oruc bildirib ki, məsələyə ən ciddi reaksiyanı verməli olan qurumlardan biri Xarici İşlər Nazirliyidir. İstənilən bir ölkədə hər hansı bir yerli vətəndaşlar və ya əcnəbilər vasitəsilə, məsələn, Fransaya, Almaniyaya qarşı Vidadi İsgəndərlinin səsləndirdiyi fikirlər, hədələr kimi hədələr səsləndirilsəydi, Fransanın, Almaniyanın Xarici İşlər Nazirliyi susmazdı: "Bir Fransa vətəndaşı gəlib Bakıda yerləşdikdən sonra Fransaya, onun hökumətinə qarşı Vidadi İsgəndərlinin dilə gətirdiyi şəkildə fikirlər işlədib internetdə yaysaydı, Fransanın Xarici İşlər Nazirliyi Azərbaycanın Parisdəki səfirliyindən, səfirdən izahat istəyərdi, səfiri dəvət edib ona nota təqdim edərdilər. Bizi topa tutardılar, məsələmizi BMT-yə çıxarardılar, bizi terrora çağırış edən adamlara sığınacaq verməkdə ittiham edərdilər. Azərbaycandan rəsmi izahat istəyərdilər. İndi isə ortalıqda artıq illərdir ki, sırf kəşfiyyat orqanları vasitəsilə himayə olunan, bəlkə də ayaqlarına müxtəlif nəzarət qurğuları bağlanmış bu adamlar bizim əleyhimizə dini radikallardan daha kəskin fətvalar verməkdədirlər. Azərbaycanın Xarici İşlər Nazirliyi isə bu məsələyə gərəkən reaksiyanı vermir. Hüquq sistemində ən ağır əməl nə sayılırsa, Vidadi İsgəndərli bundan daha ötəsini söyləyir. Xarici İşlər Nazirliyi bundan artıq daha hansı hədələri, təhqirləri görüb işə keçəcəkdir?! Bu nazirlik niyə hərəkətə keçmir?! Axı onların vəzifəsi dövlətin, xalqın, hakimiyyətin üzərinə tuşlanan zərbələrə qarşı çıxmaqdır. Respublika Prokurorluğu və Xarici İşlər Nazirliyi bu məsələdə birlikdə addımlar atmalıdırlar".


Hikmət Hacıyev

**Deputat deyib ki, Azərbaycan XİN Fransanın Bakıdakı səfirliyinə Vidadi İsgəndərli barədə rəsmi müraciət göndərməlidir. Vidadi İsgəndərlinin başdan-ayağa cinayət saçan videoçıxışları fransız dilinə tərcümə edilib, səfirliyə təqdim edilməlidir:** "Səfiri və ya səfirlik təmsilçisini dəvət edib onların qarşısında məsələ qaldırılmalıdır ki, bu cür ağır cinayət xarakterli çıxışlar sizin ölkənizdə sığınacaq verilən birisi tərəfindən edilir və hüquq tələb edir ki, ölkəniz bu məsələ ilə bağlı qanuni tədbir görsün.

Azərbaycanda terrorçuluğu Vidadi İsgəndərli təbliğ edir. Respublika Prokurorluğu, Xarici İşlər Nazirliyi hara baxır?! Gözləməliyik ki, mütləq silahdan atəş açılsın, onda hərəkətə keçsinlər?! Cəmiyyətə izahat verilməlidir ki, Avropadan üzərimizə yağdırılan təhqirlərə, hədələrə qarşı hansı qanuni tədbirlər görülüb və ya görülür".

**Deputatın qaldırdığı və səsləndirdiyi suallarla bağlı "Yeni Müsavat" Xarici İşlər Nazirliyinə sorğu göndərib. Sentyabrın 6-da XİN-in mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev qəzetin ünvanladığı sorğunu cavablandıraraq bildirib:** "Adətən Xarici İşlər Nazirliyi olaraq fərdi fikirləri şərh etmirik. Amma bu dəfə həssas məsələyə toxunulduğu üçün şərh vermək qərarına gəldik. Sözügedən məsələlər barədə bizim məlumat və təhlillərimiz yalnız YouTube-da verilən bir neçə video və sosial şəbəkə postları ilə məhdudlaşmır. Onu əlavə edə bilərəm ki, Xarici İşlər Nazirliyi müvafiq tapşırıqlar və təlimatlar əsasında öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir, amma digər məsul dövlət qurumları kimi əvvəlcədən bir çox məsələlər barədə məlumat və ya şərh verilmir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018

# Köçəryanın komandası Kremlə dosye yollayıb-ilginc

## Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiya səfəri ərəfəsində əleyhdarları aktiv hərəkətə keçib; **politoloq:** "Əgər Paşinyan öhdəliklərinə əməl edərsə, o zaman onu hakimiyyətə gətirənlər..."

**Ermənistanın baş naziri Nikol Paşinyanın sentyabrın 8-də reallaşacaq Rusiya səfəri Moskva və İrəvanda müzakirə olunan əsas məsələdir. İşğalçı ölkənin öz "ağa"sının üzünə ağ olması nəticəsində ortaya çıxmış problemlərin Paşinyana baha başa gələcəyinə artıq az adam şübhə edir.**

**Rusiya prezidentinin köməkçisi Yuri Uşakov bildirib ki, Rusiya tərəfi Putinlə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşündən açıq və ciddi söhbət gözləyir. Virtualaz.org RİA "Novosti"yə istinadən xəbər verir ki, bununla bağlı Uşakov deyib:** "Həm bizim tərəfimizdən, həm də ermənilər tərəfdən bir çox suallar yığılıb qalıb". Onun sözlərinə görə, Rusiya bütün məsələlər üzrə "açıq" söhbət gözləyir. Qeyd olunur ki, Putin və Paşinyan Rusiya ilə Ermənsitan arasında müttəfiq münasibətlərinin əsas məsələlərini müzakirə etmək niyyətindədirlər. Daha öncə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirmişdi ki, Putin və Paşinyan sentyabrın 8-də Moskvada görüşəcəklər.

"Yuri Uşakovun açıqlaması da sübuta yetirir ki, Nikol Paşinyanın qütblər arasında manipulyasiya etmək imkanları tamamilə tükənib və artıq Rusiya Ermənistanın taleyi ilə bağlı mövqeyini müəyyənləşdirmək üçün bu ölkənin baş naziri ilə konkret istiqamətlər üzrə açıq və sərt müzakirələr aparmaq niyyətindədir".

**Bu fikirləri politoloq Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi. Ekspertimizin sözlərinə görə, Moskva Paşinyana inanmır:** "Bunun üçün çoxsaylı əsaslar var. Bu əsasların Nikol Paşinyanla bağlı olan hissəsi isə onun üzərinə götürdüyü öhdəliklərə nəinki əməl etməməsi, əksinə, hər addımda bu öhdəliklərin şərtlərini kobud şəkildə pozmasıdır. Bu sıraya Robet Köçəryanın ölkə sərhədlərini tərk etməsinə qoyulan qadağa ilə bağlı faktı da əlavə etsək mənzərə tamamilə aydın olar. Ola bilsin ki, bu görüş Nikol Paşinyanın Rusiya prezidenti ilə sonuncu görüşü olsun. Hər şey aparılan müzakirələrin nəticəsindən, Paşinyanın görüşdən sonra olduqca qısa bir zaman kəsiyində sərgiləyəcəyi davranışlardan asılı olacaq. Əgər Paşinyan Rusiya qarşısında daha öncə götürdüyü və ola bilsin ki, prezident Putinlə görüş zamanı götürəcəyi yeni öhdəliklərə əməl etməzsə, o zaman Ermənistanı olduqca acınacaqlı bir durum və daha ağır şərtlər altında, forpost statusundan daha aşağı avanpost statusunda yola davam etmək gözləyəcək. Yox, əgər Paşinyan öhdəliklərinə əməl edərsə, o zaman onu hakimiyyətə gətirənlər, o cümlədən baş nazirin güvəndiyi kütlə bu "küçə qəhrəmanı"nı tez bir zamanda gəldiyi yerə qaytaracaq. Doğrusu, Paşinyanın populist bir siyasətçi olduğunu nəzərə alaraq, onun kütlə psixologiyasından çıxış edəcəyini gözləyirəm. Bu isə regionda daşların yerinə oturulmasına, ədalətin bərqərar olmasına, regional əməkdaşlığın bi fitnəkar xalqın və onun oyuncaq dövlətinin prinsipial iştirakı olmadan genişlənəcəyinə gətirib çıxaracaq. Ermənilərin hiylə, fitnə, yaltaqlıq, yalan, riyakarlıq üzərində qurulmuş siyasi-ideoloji kursları öz məntiqi sonuna yaxınlaşmaqdadır".

Rusiya XİN rəhbəri Sergey Lavrovun səfəröncəsi İrəvana davamlı xəbərdarlıqlar etməsi maraqlı müzakirələrə və yozumlara səbəb olub. Ermənistan mediasının yaydığı məlumata görə, N.Paşinyanın Rusiya səfəri ərəfəsində hakimiyyət əleyhinə olan qüvvələr Kremlə dosyelər hazırlayıblar. "Yeni Müsavat" bildirir ki, bu barədə Ermənistanın "Qrapark" qəzeti material tirajlayıb. Məlumata görə hazırlanan dosyedə antirust mövqeli Paşinyan komandasının üzvlərindən bəhs olunub. "Paket Robert Köçəryan komandası tərəfdindən hazırlanıb, hansı ki, onlar eks-prezidentin həbsindən sonra hakimiyyət uğrunda açıq mübarizəyə başlayıblar"-yazıda bildirilir.

Qəribəsi budur ki, N.Paşinyan məhz Moskva səfəri ərəfəsində Lavrovu ələ saldı. Maraqlıdır ki, Lavrovun fikirlərinə ABŞ-ın Ermənistandakı səfiri reaksiya verdi. ABŞ-ın Ermənistandakı səfiri Riçard Millsin açıq şəkildə Paşinyan hökumətini müdafiə etməsinin ardınca Ermənistanda rus hərbçilərin təlimi başladı.



**Qeyd edək ki, jurnalistlərin "Lavrovun bəyanatını Ermənistan rəhbərliyinə təzyiq və ölkənin daxili işlərinə qarışmaq hesab edirsinizmi?" sualını cavablandıran Mills Rusiya XİN rəhbərinin bəyanatı ilə tanış olduğunu və bunu müsbət dəyərləndirmədiyini deyib. Bildirib ki, Ermənistan rəhbərliyi mütləq Lavrovun bu sözlərinə cavab verməlidir. Səfirin fikrincə, rəsmi İrəvanın hazırkı fəaliyyəti tamamilə düzgündür.** "Bizim mövqeyimiz dəyişməz olaraq qalır: Ermənistandakı 2008-ci ilin 1 mart hadisələri qanunun aliliyi nəzərə alınaraq obyektiv və detallı şəkildə araşdırılmalıdır." - deyə, Mills vurğulayıb. S.Lavrov bundan əvvəl bəyan etmişdi ki, "Ermənistanda 10 il əvvəlki hadisələr araşdırılır və həbslər icra edilir. Bu, Ermənistanın daxili işi olsa da, çox istəyirik ki, bütün bu daxili işlər möhkəm qanuni zəminə söykənsin. Ermənistanda vəziyyətin qaynamağa davam etməsi bizi narahat edir." Onun bu bəyanatına Ermənistanın baş naziri Nikol Paşinyan "bəli, indi havalar çox istidir" cavabını verərək, Lavrovu ələ saldı.

Paşinyanın Moskva imtahanı qarşısında isə ABŞ səfiri onun siyasətinə açıq dəstək verdi. Üstəlik, ATƏT-in baş katibi İrəvanda yeni hökumətə dəstək verməyə hazır olduğunu deməklə Rusiyaya dirəniş nümayiş etdirdi. Ortaya çıxan qənaət budur ki, ABŞ, yaxud Qərb Rusiya ilə Ermənistan uğrunda açıq döyüşə başlayıb. Hər halda, S.Lavrovun N.Paşinyanı 1 mart 2008-ci il hadisələri ilə əlaqədar sələflərini təqib etməmək barədə öhdəliklərinə sadiq olmamaqda qınamasının qarşılığında ABŞ səfirinin istintaqı müdafiə etdiklərinə dair bəyanatına başqa ad vermək mümkün deyil. Lakin İrəvanın ziddiyyətli addımları da suallar doğurur. Bu arada Ermənistanın Rusiya tərəfində Suriyadakı proseslərdə iştirak edəcəyi barədə də məlumatlar var. Belə ki, İrəvanın hətta hərbi qüvvələri ilə, istehkamçılar və hərbi həkimlərlə Suriya əməliyyatında iştirak etmək istəyi faktiki olaraq ABŞ-ın siyasətinə ziddiyyət təşkil edir.

Ola bilsin ki, Rusiya prezidentinin köməkçisi Yuri Uşakovun "Rusiya tərəfi Putinlə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşündən açıq və ciddi söhbət gözləyir" sözləri həm də bütün bu ziddiyyətlərə aydınlıq gətiriləcəyinin anonsudur.

Digər bir maraqlı məqama da diqqət çəkməyi lazım bilirik. ABŞ-ın Ermənistandakı səfiri Riçard Millsin nümayiş etdirdiyi açıq dəstək, görünür, Paşinyan hökumətinə əlavə stimul və cəsarət verib. Belə ki, 1 mart 2008-ci il hadisələri ilə bağlı yeni həbslərin anonsu verilib. "Yeni Müsavat" erməni mətbuatına istinadən xəbər verir ki, mart hadisələrinin davam edən istintaqının nəticəsi olaraq Ermənistanın milli təhlükəsizlik xidmətinin bir neçə generalına qarşı cinayət işi qaldırılacaq. Bununla bağlı "Jamanax" ("Zaman") qəzeti məlumat yayıb. Qeyd edək ki, hakimiyyətin Robert Köçəryandan Serj Sərkisyana ötürülməsi prosesinə etiraz edənlərə qarşı həyata keçirilən tədbirlər nəticəsində 10 nəfər ölüb, xeyli etirazçı yaralanıb.

ABŞ-ın Ermənistanı öz tərəfinə çəkməsi ilə bağlı davam edən proseslərin gedişində diqqət çəkən başqa bir məqam da var. Söhbət ABŞ-dakı erməni lobbisinin və erməni diasporunun xeyli fəallaşmasından gedir. Təsadüfi deyil ki, son zamanlar ABŞ-dakı erməni klounlarının Ermənistanda, oradan da işğal altındakı Dağlıq Qarabağa səfərləri təşkil olunur, qondarma qurumun "müstəqil subyekt" olaraq təqdim olunması istiqamətində cəhdlər göstərilir. Sanki erməni dairələri "fürsətdir" deyib hərəkətə keçiblər. Tarix boyu böyük güclərin əlində "maşa"ya çevrilən erməni dairələri yenə də ənənələrinə sadiq qalmaqdadırlar. Birinci Dünya müharibəsində böyük oyunçuların qarşıdurmasından öz maraqları üçün istifadə ertməyi bacarıb Azərbaycan torpaqlarında dövlət quran ermənilər indi də Rusiya və ABŞ qarşıdurmasında oyun oynayıb Qarabağa sahiblənmək, ikinci erməni dövlətini yaratmaq iddiasındadırlar. Amma Azərbaycan dövlətinin mövqeyi birmənalıdır və bunu Soçi görüşündə rusiyalı həmkarına prezident İlham Əliyev növbəti dəfə bildirdi. Putin üçün Azərbaycanın mövqeyi tam bəllidir, indi o, Paşinyanı dinləmək, nə demək istədiyini aydınlaşdırmaq istəyir. 1 gün qaldı, gözləyək...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018

**Azərbaycanda dövlətin nəzarətində olan təbii inhisar subyektlərinin özəlləşdirilməsi məsələsi illərdir müzakirə olunur. Xüsusilə kommunal xidmətlər və enerji sektorundakı belə müəssisələr ölkənin ən böyük dövlət şirkətləridir. "Azərenerji", "Azərişıq", "Azərsu", "Azəriqaz", "Azəristiliktəchizat" və digər belə qurumlar uzun illərdir dövlət büdcəsindən ən böyük paya sahiblənirlər.**

# Hökumətin enerji sektorunu özəlləşdirməməsinin səbəbləri

## İlham Şaban: "Bu qədər dövlət dəstəyinin qarşılığında enerji pulsuz olmalıydı..."

Enerji sektoru bu baxımdan xüsusilə fərqlənir. Belə ki, son onillikdə enerji istehsalı müəssisələrinin tikintisi, enerji paylayıcı şəbəkənin yenidən qurulmasına həm dövlət büdcəsi hesabına, həm də dövlət zəmanətli xarici kreditlər hesabına milyardlarla manat sərmayə yatırılıb. Bundan əlavə, hər il "Azərenerji"nin SOCAR-dan aldığı qaz və mazut üçün büdcədən iri həcmdə subsidiya ayrılır. Yalnız cari ildə bu subsidiyanın həcmi 300 milyon manat təşkil edir. Bu qədər vəsaitlərin sərf olunduğu enerji təchizatı sistemində təhlükəsizlik, dayanıqlıq istənilən səviyyədə təmin olunmayıb. İyulun 3-də baş verən qəza zamanı yaşananlar göstərir ki, ayrılan vəsaitlər heç də səmərəli xərclənməyib.

Maraqlıdır ki, Azərbaycan hökuməti yerli və xarici mütəxəssislərin təkidli təkliflərinə rəğmən, enerji sektorunda özəlləşdirməyə getmir. Halbuki postsovet ölkələrindən buna gedərək uğurlu nəticələr əldə edənlər az deyil. Hətta Rusiyada belə enerji istehsalı müəssisələrinin əksəriyyəti özəlləşdirilsə də, Azərbaycan bu addımı atmağa tələsmir.



Qeyd edək ki, bir müddət əvvəl Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) özəlləşdirilməsi məsələsi geniş müzakirə olunurdu. Müzakirələrə Azərbaycan prezidenti İlham Əliyevin Rusiya mətbuatına verdiyi açıqlama ilə son qoyuldu. Belə ki, prezident SOCAR-ın heç zaman özəlləşdirilməyəcəyini bəyan etdi.

Enerji sektoru ilə bağlı isə maliyyə naziri Samir Şərifov bir neçə il əvvəl "Azərenerji"nin özəlləşməyə hazırlandığı barədə açıqlama versə də, bu istiqamətdə heç bir konkret addım atılmayıb. Hökumət hansı səbəblərdən enerji sektorunda idarəetməni əlində saxlamaqda qərarlıdır? Burada strateji bir sahənin kənar əllərə verilməməsi məqsədi əsas rol oynayır, yoxsa başqa maraqlar var?

**Sualları cavablandıran enerji məsələləri üzrə ekspert, "Neft" Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban deyir ki, Azərbaycanda hökumət nəinki özəlləşdirməyə həvəsli deyil, heç dövlət nəzarətində saxlanılmaqla hansısa səhmdar cəmiyyətlərə çevrilmiş dövlət müəssisələrinin belə kənar səhmdarlar cəlb edib kommersiya fəaliyyətində olan şirkətlərə çevrilməsində maraqlı deyil:** "Nəticədə uzun illərdir ki, həm büdcə vəsaitləri qeyri-rasional xərclənir, həm də dövlətin büdcəsinə həmin aktivlərdən gözlənilən mənfəət gəlmir. Ona görə də dövlət bütün iqtisadiyyatın yükünü özü çəkir və çəkməkdə davam edir, özü də fərqinə varmır: neftin qiyməti 140 dollardır, ya 40 dollar... Çünki yük reallıqda məmurların üzərinə deyil, böyük əhali kütləsinin üzərinə düşür əslində"..

**Ekspertin sözlərinə görə, "Azərenerji" strateji obyektlər sırasındadır:** "O baxımdan hökumət onu özəlləşdirmək fikrinə düşmür. Elə "Azərsu" da həmin strateji obyekt sırasındadır. Ancaq yadımıza salaq, on il ərzində suyun qiyməti neçə dəfə və hansı səviyyədə artırılıb. Mənası nədir? Yenə də "Azərsu" ziyanla işləyən bir obyektdir. İstəyirsən bundan sonra Azərbaycanda suyun qiymətini 5 dəfə də qaldır, yenə də o, ziyanla işləyəcək. Necə ki, "Azərenerji" - işığın qiymətini mən Rusiya ilə müqayisə etmişəm. Hazırda Moskvada 1 kVt\saat elektrik enerjisinin qiyməti 11 qəpikdir, özü də limitsiz. Ancaq rəsmi statistikaya görə, orta aylıq əmək haqqı Moskvada yaşayanlar üçün təqribən 1000 dollar, yəni 1700 manatdır. Azərbaycanda isə bundan 3 dəfədən çox az əmək haqqı ilə demək olar ki, həmin tariflərlə enerji satılır. Və enerji qurumları iddia edirlər ki, onlar güc-bəla ilə təsərrüfatı idarə edirlər. Ən qəribəsi isə budur ki, elektrik stansiyalarının tikilmə xərclərini bütünlüklə Azərbaycan hökuməti ya büdcədən ödəyir və ya dövlət qarantiyalı kreditlərlə. O cümlədən də magistral xətlərin çəkilişi, paylayıcı şəbəkələrin qurulması. Xaricdə və o cümlədən Rusiyada isə bütün bunlar səhmdar cəmiyyətlər və kommersiya qurumları hesabınadır. Elə isə bizdə enerji niyə baha olmalıdır? Əslində bizdə enerji pulsuz olmalı idi bu qədər dövlət dəstəyi hesabına... Ya da enerji sektorunda çalışanların orta əmək haqqı bu saat 3000 manatdan az olmamalı idi. Reallıqda isə nə vəziyyətdir? Bir maraqlanın "Azərenerji"də 10-15 il işləyən mühəndisin orta əmək haqqı nə qədərdir"!

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Payızda bu məhsullar bahalaşa bilər

## Ekspert: "Məhsul yığımının sonlanması ilə əlaqədar oktyabrda bütün kənd təsərrüfatı məhsullarının qiymətində artım gözlənilir"

**Qarşıdan payız mövsümü gəlir. Belə ki, sentyabrın 23-də ölkəmizdə artıq payız fəsli başlayacaq. Bəs bu mövsümdə nələr bahalaşa bilər?**

Öncə xatırladaq ki, bir neçə gün öncə Azərbaycana idxal edilən kartofun gömrük rüsumu iki dəfə artırılıb. Bu səbəbdən ehtimal olunurdu ki, payız mövsümündə "ikinci çörək" hesab edilən kartofun qiyməti də bahalaşacaq. Lakin ötən gün Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdir müavini Vüqar Hüseynov REAL TV-yə açıqlamasında qeyd etdi ki, rüsumun iki dəfə artmasına baxmayaraq kartofun qiymətində artma olmayacaq: "Azərbaycan tələbatını daxili istehsalın hesabına ödəyə bilir. Kartofun gömrük rüsumunun iki dəfə artırılması fermerlərə dəstəkdir. Onlar öz məhsullarını rahat sata biləcəklər".

Qeyd edək ki, yay mövsümündə paytaxt Bakıda ət və çörəyin nisbətən bahalaşması artıq müşahidə edilirdi. Bakı Statistika İdarəsinin bu günlərdə yaydığı məlumata görə, 2018-ci ilin iyul ayında iyun ayına nisbətən istehlak bazarında "Çörək məmulatları və yarmalar" qrupu 0,1 faiz, "Ət məhsulları" qrupu 0,3 faiz, "Balıq məhsulları" qrupu 1,1 faiz, "Yağ və piylər" qrupu 0,2 faiz, "Qənd, cem, bal, şokolad və konfetlər" qrupu 0,2 faiz, "Digər kateqoriyalara aid edilməyən yeyinti məhsulları" qrupu 0,2 faiz, "Mineral sular, sərinləşdirici içkilər və şirələr" qrupu 0,1 faiz, "Araq, brendi (konyak)" qrupu 0,2 faiz, "Pivə" qrupu 0,1 faiz bahalaşıb.

Qeyri-ərzaq məhsullarından "Mebel və ev əşyaları" qrupunun qiyməti 0,1 faiz, "Tibb təyinatlı digər məhsullar" qrupu 0,2 faiz, "Telefon aparatları" qrupu 0,4 faiz, "Dəftərxana ləvazimatı və şəkil çəkmək üçün ləvazimat" qrupu 0,5 faiz, "Şəxsi gigiyena üçün digər məmulatlar" qrupu 0,1 faiz, "Zərgərlik məmulatları" qrupu 0,6 faiz, "Sair şəxsi istifadə əşyaları" qrupu 0,9 faiz yüksəlib.



Həmçinin xidmət sektorunda da qiymət artımı baş verib. Belə ki, 2018-ci ilin iyul ayında iyun ayına nisbətən "Paltarların təmizlənməsi, təmiri və kirayəsi" qrupu 0,5 faiz, "Dəmiryol sərnişindaşıma nəqliyyatı xidmətləri" qrupu 4,6 faiz, "Hava sərnişindaşıma nəqliyyatı xidmətləri" qrupu 2,2 faiz, "Ödənişli ali təhsil haqqı" qrupu 0,5 faiz, "Mehmanxana xidməti" qrupu 0,7 faiz, "Bərbərxana və kosmetik xidmətlər" qrupu 0,1 faiz bahalaşıb.

Beləliklə, bəs payız mövsümündə nələr bahalaşa bilər?

**İqtisadçı Rəşad Həsənov sualımıza bu cür şərh bildirdi:**

"Əsasən kənd təsərrüfatı məhsullarında qiymət artımı gözlənilir. Məhsul yığımının sonlanması ilə əlaqədar oktyabrda bütün kənd təsərrüfatı məhsullarının qiymətində artım gözlənilir. Ümumilikdə isə, növbəti mövsümdə digər məhsul növləri üzrə də qiymət artımları gözlənilir. Bu da əsasən büdcə xərclərinin artması və digər məsələlər, o cümlədən məhsulların dünya bazarında qiymətinin dəyişməsi, bazarda rəqabətin zəif olması ilə bağlı olacaq. Beləliklə, qiymət artımı mərhələli şəkildə davam edəcək".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



## Lukaşenko kartof və qarpız yığdı

**Belarus lideri Aleksandr Lukaşenko öz tarlasında kartof və qarpız yığıb.**

Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, bu barədə Lukaşenkonun rəsmi saytı məlumat yayıb.

Məlumata görə, yayın quraq olmasına baxmayaraq, məhsul bol olub: yarım hektar ərazidən 60 ton kartof yığılıb.

Qeyd edilib ki, yığılan kartofun bir hissəsi uşaq evlərinə və internatlara veriləcək.

Bundan başqa, Lukaşenko qarpız da yığıb. 1,6 hektar ərazidən 42 ton qarpız yığılıb. Yığımdan sonra Belarus prezidenti və köməkçiləri tarlada qarpızın dadına baxıblar.

## Lukaşenko: "Xərclər məsələsində Azərbaycanla yarışmaq lazım deyil..."

Belarus prezidenti Aleksandr Lukaşenko dünən yeni baş nazir Sergey Ruması qəbul edərək iqtisadiyyatın inkişafı, futbolu və Avropa Oyunlarına hazırlıq məsələrini müzakirə edib.

Virtualaz.org Belarus rəsmi KİV-lərinə istinadən xəbər verir ki, Lukaşenko Birinci Avropa Oyunlarına ev sahibliyi edən Azərbaycanla xərclər məsələsində "yarışmağa gərək olmadığını" bildirib. Onun sözlərinə görə, bu məsələdə Belarus yüksək təşkilatçılıq səviyyəsi və səmimiyyəti ilə seçilməlidir.

Belarus Azərbaycandan sonra Avropa Oyunlarına ev sahibliyi edəcək ikinci ölkədir.

YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018



# Qurban Qurbanovun sınağı- Allah utandırmasın!

## Mili komandada bir klubda oynayan 2, 3, bəzən 4 oyunçunun meydana çıxması daha effektlidir ki, bunu bir neçə il əvvəlki İspaniya millisinin nümunəsində görmək olardı...

**Bu gün Azərbaycan yığma komandası UEFA Millətlər Liqasında ilk matçına çıxır. D Liqasının III qrupunda yer alan Azərbaycan millisi ilk matçını Bakı Olimpiya Stadionunda Kosovo yığmasına qarşı keçirəcək. Saat 20:00-da başlayacaq görüşü Norveçdən olan hakimlər briqadası idarə edəcək.**

Matçın baş hakimi Ola Hobber Nilsen olacaq. Ona həmyerliləri Tom Harald Gronevik və Qeyr İsaksen yan xətt hakimi kimi kömək edəcək. Dördüncü hakim Oustin Ytterland olacaq. Əlavə köməkçi hakimlər isə Espen Eskasla Tom Harald Hagendir.

Qeyd edək ki, Kosovo ilə yanaşı bu qrupda Malta, Farer adaları da mübarizə aparır.

D liqalarının qrup qalibləri 2020/21 mövsümündə daha yüksək dəstədə oynamaq hüququ qazanacaq. Azərbaycan millisi C liqasına yüksəlmək üçün öz qrupunda 1-ci yeri tutmalıdı.

Bundan başqa, komandaların qrup mərhələsində tutduğu mövqe onların Avro-2020-nin püşkatmasında hansı səbətdə yer alacağını müəyyənləşdirəcək. 2019-cu ilin dekabrındakı mərasimdə Azərbaycan millisinin IV, V və ya VI səbətdə olacağı da nəticələrindən asılı olacaq.

Millətlər Liqası həm də Avro-2020-yə 4 vəsiqə verəcək. Hər liqadan 1 komanda buna nail olacaq. Həmin xoşbəxtin adı 2020-ci ilin martında baş tutacaq pley-off mərhələlərində bəlli olacaq.

Pley-offa isə qrupun Avro-2020-yə vəsiqə qazanmayanlar arasında ən yaxşısı qatılacaq. Qrupun ən yaxşısı seçmə mərhələnin 10 qrupunda ilk 2 yeri tutanlar nəzərə alınmadan müəyyənləşəcək.

Azərbaycan millisi AÇ-yə vəsiqə qazanmaq üçün qrupda 1-ci yerlə pley-offa yüksəlməlidir. Təbii ki, seçmə mərhələdə möcüzə gerçəkləşdirsə və final raunduna yüksəlsə, pley-offa 2-ci yerin sahibi yollanacaq. Millətlər Liqasında qrupumuzda bizdən yüksək yer tutan komanda seçmə mərhələdə vəsiqə əldə etsə, pley-offa yollanmaq şansı qazanacağıq.

Qeyd edək ki, qrup oyunları 2018, final mərhələsi 2019, pley-off 2020-ci ildə baş tutacaq.

Komandalar dairəvi sistemlə 2 dövrədə mübarizə aparacaq.



***

Kosovo milli komandası haqda ən çox səslənən fikir budur ki, milinin üzvlərinin hamısı legionerdir. Bunu üstünlük kimi qiymətləndirmək də olar, çatışmazlıq kimi də. Hər halda, onların bir neçə oyunçusunun qarşısında adını eşitdiyimiz klublar var. Bu cür legionerlərlə işləmək düşünmürəm ki, Kosovo millisinin baş məşqçisi Bernard Şallan üçün asan olsun. Hərəsi bir klubdan gələn komandanın "ağzını" bir yerə yığmaq o qədər də asan deyil. Əslində mili komandada bir klubda oynayan 2, 3, bəzən 4 oyunçunun meydana çıxması daha effektlidir ki, bunu bir neçə il əvvəlki İspaniya millisinin nümunəsində görmək olardı. Yəni İspaniya millisi "Barselona" və ya "Real" kimi oynayırdı. Bu baxımdan legioner faktoru Kosova milisi üçün üstünlük deyil, məncə.

"Mən və texniki heyət müdafiə, yarımmüdafiə və hücum mövqeləri üzərində çox çalışdıq. Künc zərbələrini və standart vəziyyətləri məşq etdik. Çox güclü və aqressiv rəqibimiz var".

Kosovo millisinin baş məşqçisi Azərbaycanla oyun öncəsi belə deyib. "Mən yaxşı bir komandaya sahib olmaq istəyirəm və fərdlərə diqqət yetirmirəm. Hər kəsin oynamağa istəkli olduğunu bilirəm. Amma bilməliyik ki, qarşıda iki oyunumuz var və bu oyunlar üçün futbolçulara ehtiyacımız var. Biz əlimizdən gələn hər şeyi edəcəyik" - deyə o bildirib.(qol.az)

***

Azərbaycan milli komandasına ötən ilin noyabrında "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov rəhbərlik edir. Neçə illərdir ki, əcnəbi baş məşqçilərin "sınaq meydanı" olan Azərbaycan millisinin qarşısında bu turnirdə hansı tələblər qoyulduğu dəqiq məlum deyil. Yaxın günlərdə telekanalların birində eşitdim ki, AFFA milli komandanın ən azı D qrupundan yüksək qrupa yüksəlməsini gözləyir.

Qurban Qurbanov üçün iki komandada işləməyin ağır və məsuliyyətli olduğu aydındır. Amma aydın olmayan ötən aylar ərzində milli komandamızda hansı keyfiyyət dəyişikliyinin olmasıdır. Milli komandamız bugünkü oyuna qədər bir neçə yoldaşlıq görüşündə özünü sınayıb, amma nəticələr uğurlu hesab edilə bilməz. Milli komandanı Qurban Qurbanovun Millətlər Liqasının debütündə hansı sistemdə oynadacağını güman etmək olar. Bu, çətin ki, "Qarabağ"dan çox fərqlənsin. Yəni komanda hücuma meylli oyun sərgiləməli, müdafiədə etibarlı oynamalı, topa daha çox nəzarət etməlidir. Hər halda, illərdir "Qarabağ"da öyrəşdiyimiz bu sistemdə yalnız bəzi futbolçuların adlar dəyişə bilər. Məsələn, "Qarabağ"ın qapıçı Şahrudin Məhəmmədəliyev, mərkəz müdafiəçiləri Bədavi Hüseynov və Rahil Məmmədov, sağ cinah müdafiəçisi Maksim Medvedev, dayaq yarımmüdafiəçiləri Qara Qarayev və Coşqun Diniyev və hücumçu Mahir Mədətov Kosovo ilə matçda milli komandanın formasını geyinəcəklər.

Bu isə vaxtilə Kiyev "Dinamo"suna, paralel olaraq SSRİ yığmasına rəhbərlik edən Valeri Lobanovski təcrübəsini yada salır. Yada salaq ki, karyerası ərzində üç dəfə mili komandaya rəhbərlik edən Valeri Lobanovski heyətə əsasən, Kiyev "Dinamo"sunun üzvləri ni cəlb edirdi. 1986-cı il dünya çempionatında isə SSRİ yığmasının heyəti bütövlükdə rəhbərlik etdiyi klubun üzvlərindən ibarət idi. Bu səbəbdən də komanda öz qrupunda birinci yeri tutdu, 1/ 8-də isə sovet uşaqlarının hələ də yaxşı xatırladığı dramatik görüşdə (SSRİ Belçikaya 3:4 uduzdu) mübarizəni dayandırdı.

Qurban qardaşımız milliyə təyinat alanda, Lobanovski nümunəsi haqda çox yazılıb. Bir daha yada salmaqda fayda var ki, indi heç bir məşqçi bu cür yükün altına girməyə risk etmir. Qurban Qurbanovun milliyə niyə rəhbərlik etməyə razılaşmasının min səbəbi haqda yazılıb, bu təyinatın əleyhinə olanlardan biri də bəndəniz olub. Amma Qurban Qurbanovun min birinci səbəbi odur ki, adam həm də millət üçün nəsə etmək istəyir, demək, həm də dəstəyə layiq oğlandır.

**Bu, Qurban Qurbanovun milli komandada ilk ciddi sınağıdır. Allah utandırmasın...**

❑ **Nazim SABİROĞLU, "Yeni Müsavat"**







YENİ MÜSAVAT
N 188 (7077) 7 sentyabr 2018

# Ət yeyək, yoxsa ot?

## Ət yeməyindən imtina etmədən və ya onsuz gün keçirmədən öncə... bu yazını oxuyun

**İndi hansı saytı açsan, sağlam qidalanma, onun detalları, ət yerinə meyvə-tərəvəz yeməkləri yemənin faydaları barədə yazılara, araşdırma materiallara rast gəlmək olar. Çünki insanlar daha çox yaşamağın, xəstəliklərdən uzaq olmanın yolunu daha sağlam qidalanmada görürlər. Amma hər məsələdə olduğu kimi, burada da ifrata varmaq olmaz. Əks halda, sağlamlıq təhlükəyə girə bilər.**



"Yeni Müsavat" bu yazıda ət yeməyini ot yeməyinə tərcih edənlərin hekayəsindən yazacaq. Daha doğrusu, bunun yarada biləcəyi fəsadlardan, eləcə də faydalardan.

**Ət mədədə 5-6 saata həzm olunur**

Doğrudur, içi biz qarışıq, bir çox insanlar düşünürlər ki, insan ət yeməyəndə doymur. Bəzən ət yemədiyi üçün "beyninin zəif işlədiyini" iddia edənlər belə olur. Amma araşdırmalar göstərir ki, ət insan mədəsində çox gec həzm olunur. Əgər meyvə-tərəvəz yarım saata, düyü 1 saata, yumurta və vələmir yarması 1 saat 20 dəqiqəyə, təzə süd 2 saata həzm olunursa, ət 5-6 saata həzm olunur. Məhz bu hal, yəni ətin mədədə həzmə getmədən çox qalması halı insanda yalançı toxluq ovqatı yaradır. Amma bu zaman qan damarları əziyyət çəkir. Mədəyə düşmüş yağlı ətin həzm olunması uzun müddət çəkir. Yoğun bağırsağa düşmüş ətin böyük hissəsi qana sorula bilmir və nəticədə uzun müddət orada qalaraq çürüyür. Bu isə bakteriyalar üçün zəngin ziyafət süfrəsidir. Bir çox təhlükəli xəstəliklər məhz bu prosesdən sonra qan vasitəsilə bütün bədənə yayılır.

Ətin tərkibində kulli miqdarda müxtəlif ekstraktiv, toksinlər, xolesterin və s. zərərli maddələr mövcuddur və onlar əsəb sisteminə çox pis təsir göstərir. Heç təsadüfi deyil ki, ət yeyən insanlar arasında nevrasteniya, cinsi pozğunluq, ürək, mədə və digər orqanların xəstəlikləri daha çox olur. Kababı sevənlər bilməlidirlər ki, ətin tərkibindəki parazit-yumurtalar insan orqanizmində qarşısıalınmaz fəsadlar əmələ gətirir.

**Ət yesəniz, ölümünüz tezləşəcək - vegetarianlarda immunitet daha güclüdür**

Son illərdə aparılan araşdırmalar göstərir ki, alkoqolizm və siqaret çəkmədən sonra ölümün əsas səbəblərindən biri də ət məhsulları ilə qidalanmadır. Ət vasitəsilə insan bədəninə daxil olan xolesterin qan damarlarının divarlarında yığılaraq ürəyə qan axınını azaldır ki, bu da öz növbəsində, yüksək qan təzyiqinə, ürək çatışmazlığına və insulta gətirib çıxarır.

Araşdırmalara görə, ət məhsulları ilə daha çox qidalanan 25 ölkənin 20-də xərçənglə xəstələnmə faizi çox yüksəkdir. Eyni zamanda ətlə az qidalanan və ya ümumiyyətlə, ət yeməyən 35 ölkənin əhalisində xərçənglə xəstələnmə faizi çox aşağıdır.

Bəs yaxşı, ətdən necə imtina edək? Ümumiyyətlə, ətdən imtina edənlər çoxmu sağlam olur? Əslində bununla bağlı ortada bir-birindən fərqli araşdırma nəticələri var.

Alimlər sübut edib ki, vegetarianlar fiziki və mənəvi cəhətdən tam sağlam, sülhpərvər və şən olurlar. Güclü intellektə, uzun ömrə malik olan vegetarianlar hər cür xəstəliyin öhdəsindən gəlirlər.

Çünki orqanizmə lazım olan çoxsaylı vitaminlər, zülallar, yağlar, minerallar, karbohidratlar və sair maddələr bitki mənşəli qidalarda daha zəngin tərkibdə olduğundan vegetarianların immunitet sistemi çox güclü olur. Bu gün dünyada idmançıların da bir hissəsi vegetarianlığa üstünlük verirlər.

Sağlamlıq və qidalanma üzrə nüfuzlu mütəxəssislərin çoxu bu qənaətdədir ki, sağlam qidalanmanın əsas şərti ilk növbədə ət və ət məhsullarından imtina etmək, yalnız bitki mənşəli təbii qidalardan istifadə etməkdir. Natural qidalanma, yəni qeyd olunan maddələrin birbaşa ilk mənbədən- təbiətdən alınma prosesi sağlam həyat tərzinin əsas şərtidir.

Ümumiyyətlə, insanın mədə-bağırsaq sistemi- mədə şirəsinin tərkibi, bağırsağın uzunluğu, həmçinin dişlərin quruluşu və s. orqanları ətlə qidalanma üçün nəzərdə tutulmayıb. Bir sözlə, insan öz orqanizminin fizioloji və təbii tələblərini nəzərə almağa məcburdur.

Son zamanlar həkimlər də etiraf edirlər ki, ürək-qan-damar, mədə-bağırsaq və xərçəng xəstəliklərinin törəməsi əsasən ətlə qidalanmanın nəticəsidir. Hazırda sübut olunub ki, vegetarian qidalanmaya keçəndən sonra ürək-qan-damar, mədə-bağırsaq və xərçəng xəstəliklərinin 97%-nin qarşısı alınır.

Vegeterianlar arasında ürək-damar sistemi problemlərinə 30, xərçəng xəstəliyinə isə 40% daha az təsadüf olunur. Hipertoniyada bu qidalanma sistemini seçənlər üçün problem deyil.

Bunları xarici ölkələrdəki həkimlər öz pasiyentlərinə çatdırır, bizdə isə əksər həkimlər bunda maraqlı deyil, yəqin bəziləri düşünürlər ki, insanlar sağlam olsalar, onların bazarı bağlanar.

**Kim ki ətdən imtina edir... onları gözləyən təhlükələr böyükdür**

Amma bura qədər yazdıqlarımızın əksini sübut edən araşdırmalar da var. Ətdən imtina insanların sağlamlığı üçün təhlükəli ola bilər. Ət beynin fəallığını artırır və ömrü uzadır. Bunu Oksford Universitetinin tədqiqatçıları bildiriblər. Onların sözlərinə görə, ət çatışmazlığı insan beyninin fəaliyyətinin pozulmasına gətirib çıxarır.

Alimlər sübut ediblər ki, yalnız bitki mənşəli qidaların istifadəsi beyin çəkisinin azalmasına gətirib çıxara bilər ki, bu da insan üçün təhlükəlidir. Məsələ ondadır ki, bitki mənşəli məhsulların qəbulundan bir müddət sonra orqanizmdə zülal defisiti başlayır. Beləliklə, bədəndə bütün qida balansı pozulur.

Alimlər bildirirlər ki, bədənə mütləq ət, balıq və süd lazımdır. Bu qida məhsullarından imtina insanlarda V12 vitamininin çatışmazlığına səbəb olur.

**Hansı millət daha çox ət yeyir - azərbaycanlılar alt sıradadır**

Keçək hansı millətin nə qədər ət yeməsinə. Doğrudur, biz özümüzü "ətyeyən" millət adlandırırıq. Məsələn, toy-məclislərimizin ana yeməyi kababdır. Evimizdə az qala hər gün ətli yeməklər bişiririk. Amma statistikaya görə, ölkə əhalisinin adambaşına düşən ətin miqdarı 32 kiloqramdır.

BMT-nin qida və ərzaq problemlərinə nəzarət edən aidiyyəti komissiyası dünya üzrə əhalisi ən çox və ən az ət yeyən ölkələri müəyyənləşdirib. İngiltərənin məşhur "The Telegraph" qəzetində yayılan məlumata görə, statistika aparan zaman bir il ərzində qəbul edilən ətin miqdarı müəyyən edilib. Alınan rəqəm isə ölkə əhalisinin sayına bölünüb.

Ətdən ən az istifadə edən ölkələr Banqladeş, Hindistan və Şri-Lankadır. Burada kasıblıqdan da çox ölkələrin dini inancları, müxtəlif rituallara uyaraq, ətdən imtinası əsas fakt kimi göstərilir. Adıçəkilən ölkələrdə hər sakin il ərzində maksimum 5 kq ət yeyir.

Siyahının aşağı pillələrindəki növbəti ölkələr isə kasıb Afrika dövlətləridir. Mozambik, Qambiya, Efiopiyada əhalinin il ərzində niyə az ət yemələrinin səbəbi artıq hamıya məlumdur.

Dünyada vətəndaşı ən çox ət yeyən ölkə isə ABŞ-dır. Hər amerikalı il ərzində 120,2 kq. ət yeyir. İkinci yerdə isə kiçik ərəb dövləti olan Küveyt durur. Bu ərəb ölkəsində yağlı ət yeməklərini çox sevirlər. Hər küveytli il ərzində 119 kq ət yeyir.

Ən çox qoyun və xırdabuynuzlu heyvanların saxlanıldığı Avstraliyada isə bu göstərici 116 kq-dır.

**Gündə 150 qram ət yeyilməlidir**

Ümumiyyətlə, gün ərzində orta hesabla ən azı 150 qram, ildə təxminən 60-65 kq ət və ət məhsullarının istehlak edilməsi fizioloji qida norması hesab edilir. Orqanizmdə maddələr mübadiləsi üçün ən zəruri olan elementlər ət xörəklərinin tərkibində hazır şəkildə olur. Ona görə də daha tez və asan mənimsənilərək, hüceyrələrdə enerji mənbəyinə çevrilir. Birləşmiş Millətlər Təşkilatının açıqladığı statistikaya əsasən, dünyada ən çox ətyeyən ölkələr Lüksemburq, Honq Konq və ABŞ-dır.

Avropa, Latın Amerikası və Şimali Amerika qitələr arasında adambaşına ən çox ət yeyilən ərazilərdir. Afrika və Cənub-Şərqi Asiya adambaşına ən az ətin düşdüyü bölgələrdir.

Qonşu Gürcüstanda bu rəqəm 31.2 , Ermənistanda isə 29 kiloqramdır. Türkiyədə isə bu rəqəm 21.2-dir. Ən az ət yeyilən ölkələr isə Banqladeş, Burundi və Konqodur. Banqladeşdə adambaşına illik 3 kiloqram ət düşür. Hindistanda isə ilə 5 kiloqram ət istehlak olunur.

Həkimlər isə bildirir ki, ümumiyyətlə, ət - həftədə ən çoxu 0,5 kq qəbul edilməlidir. Bundan artığı çəkinin artmasına və sağlamlıqla bağlı problemlərə səbəb ola bilər. Bundan başqa, əti qaynatmadan yemək çox təhlükəlidir. Hazırki dövrdə əksər heyvanların ətində çox sayda təhlükəli mikrob və bakteriyalar olur ki, bunlar da kabab, dönər, kolbasa, qızartma kimi yeməklərlə orqanizmə keçir. Bunlardan 4-ü hətta qaynadıqda belə ölmür. Məhz bu üzdən, çiy küftənin dəbdə olduğu Türkiyədə xərçəng və digər xəstəliklər tüğyan edir.

**Sevinc TELMANQIZI,**
**"Yeni Müsavat"**



# Zaqatalada hamilə ana narkozdan ayılmadı

**Zaqatala rayonunda ana ölümü baş verib.**

"Report" xəbər verir ki, rayonun Uzunqazmalar kənd sakini, 1994-cü il təvəllüdlü Karatova Sevgiya Eyyub qızı sentyabr ayının 5-i səhər saatlarında Zaqatala Rayon Mərkəzi Xəstəxanasına doğum üçün müraciət edib. O, günorta saatlarında qeysəriyyə yolu ilə oğlan uşağı dünyaya gətirib. Əməliyyatdan sonra axşam saatlarında ailəsinə ananın ölməsi ilə bağlı məlumat verilib. Mərhumun yaxınlarının bildirdiyinə görə, S.Karatova narkozdan ayılmayıb. Körpənin vəziyyəti normaldır.

Zaqatala Rayon Mərkəzi Xəstəxanasından "Report"a bildirilib ki, Səhiyyə Nazirliyinin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin rayon şöbəsinin rəyindən sonra ölümün dəqiq səbəbi bilinəcək.

Qeyd edək ki, S.Karatovanın yaşayırmlıq oğlu da var.

YENİ MÜSAVAT
N 187 (7076) 7 sentyabr 2018



# Qurban Qurbanovun sınağı-Allah utandırmasın!

**Mili komandada bir klubda oynayan 2, 3, bəzən 4 oyunçunun meydana çıxması daha effektlidir ki, bunu bir neçə il əvvəlki İspaniya millisinin nümunəsində görmək olardı...**

**Bu gün Azərbaycan yığma komandası UEFA Millətlər Liqasında ilk matçına çıxır. D Liqasının III qrupunda yer alan Azərbaycan millisi ilk matçını Bakı Olimpiya Stadionunda Kosovo yığmasına qarşı keçirəcək. Saat 20:00-da başlayacaq görüşü Norveçdən olan hakimlər briqadası idarə edəcək.**

Matçın baş hakimi Ola Hobber Nilsen olacaq. Ona həmyerliləri Tom Harald Gronevik və Qeyr İsaksen yan xətt hakimi kimi kömək edəcək. Dördüncü hakim Oustin Ytterland olacaq. Əlavə köməkçi hakimlər isə Espen Eskasla Tom Harald Hagendir.

Qeyd edək ki, Kosovo ilə yanaşı bu qrupda Malta, Farer adaları da mübarizə aparır.

D liqalarının qrup qalibləri 2020/21 mövsümündə daha yüksək dəstədə oynamaq hüququ qazanacaq. Azərbaycan millisi C liqasına yüksəlmək üçün öz qrupunda 1-ci yeri tutmalıdı.

Bundan başqa, komandaların qrup mərhələsində tutduğu mövqe onların Avro-2020-nin püşkatmasında hansı səbətdə yer alacağını müəyyənləşdirəcək. 2019-cu ilin dekabrındakı mərasimdə Azərbaycan millisinin IV, V və ya VI səbətdə olacağı da nəticələrindən asılı olacaq.

Millətlər Liqası həm də Avro-2020-yə 4 vəsiqə verəcək. Hər liqadan 1 komanda buna nail olacaq. Həmin xoşbəxtin adı 2020-ci ilin martında baş tutacaq pley-off mərhələlərində bəlli olacaq.

Pley-offa isə qrupun Avro-2020-yə vəsiqə qazanmayanlar arasında ən yaxşısı qatılacaq. Qrupun ən yaxşısı seçmə mərhələnin 10 qrupunda ilk 2 yeri tutanlar nəzərə alınmadan müəyyənləşəcək.

Azərbaycan millisi AÇ-yə vəsiqə qazanmaq üçün qrupda 1-ci yerlə pley-offa yüksəlməlidi. Təbii ki, seçmə mərhələdə möcüzə gerçəkləşdirsə və final raunduna yüksəlsə, pley-offa 2-ci yerin sahibi yollanacaq. Millətlər Liqasında qrupumuzda bizdən yüksək yer tutan komanda seçmə mərhələdə vəsiqə əldə etsə, pley-offa yollanmaq şansı qazanacağıq.

Qeyd edək ki, qrup oyunları 2018, final mərhələsi 2019, pley-off 2020-ci ildə baş tutacaq.

Komandalar dairəvi sistemlə 2 dövrədə mübarizə aparacaq.



***

Kosovo milli komandası haqda ən çox səslənən fikir budur ki, milinin üzvlərinin həmısı legionerdir. Bunun üstünlük kimi qiymətləndirmək də olar, çatışmazlıq kimi də. Hər halda onların bir neçə oyunçusunun qarşısında adını eşitdiyimiz klublar var. Bu cür legionerlər işləmək düşünmürəm ki, Kosovo millisinin baş məşqçisi Bernard Şallan üçün asan olsun. Hərəsi bir klubdan gələn komandanın "ağzını" bir yerə yığmaq o qədər də asan deyil. Əslində, mili komandada bir klubda oynayan 2, 3, bəzən 4 oyunçunun meydana çıxması daha effektlidir ki, bunu bir neçə il əvvəlki İspaniya millisinin nümunəsində görmək olardı. Yəni İspaniya millisi "Barselona" və ya "Real" kimi oynayırdı. Bu baxımdan legioner faktoru Kosova milisi üçün üstünlük deyil məncə.

"Mən və texniki heyət müdafiə, yarımmüdafiə və hücum mövqeləri üzərində çox çalışdıq. Künc zərbələrini və standart vəziyyətləri məşq etdik. Çox güclü və aqressiv rəqibimiz var".

Kosovo millisinin baş məşqçisi Azərbaycanla oyun öncəsi belə deyib. "Mən yaxşı bir komandaya sahib olmaq istəyirəm və fərdlərə diqqət yetirirəm. Hər kəsin oynamağa istəkli olduğunu bilirəm. Amma bilməliyik ki, qarşıda iki oyunumuz var və bu oyunlar üçün futbolçulara ehtiyacımız var. Biz əlimizdən gələn hər şeyi edəcəyik" - deyə o bildirib.(qol.az)

***

Azərbaycan milli komandasına ötən ilin noyabrında "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov rəhbərlik edir. Neçə illərdir ki, əcnəbi baş məşqçilərin "sınaq meydanı" olan Azərbaycan millisinin qarşısında bu turnirdə hansı tələblər qoyulduğu dəqiq məlum deyil. Yaxın günlərdə telekanalların birində eşitdim ki, AFFA milli komandanın ən azı D qrupundan yüksək qrupa yüksəlməsini gözləyir.

Qurban Qurbanov üçün iki komandada işləməyin ağır və məsuliyyətli olduğu aydındır. Amma aydın olmayan ötən aylar ərzində milli komandamızda hansı keyfiyyət dəyişikliyinin olmasıdır. Milli komandamız bugünkü oyuna qədər bir neçə yoldaşlıq görüşündə özünü sınayıb, amma nəticələr uğurlu hesab edilə bilməz. Milli komandanı Qurban Qurbanovun Millətlər Liqasının debütündə hansı sistemdə oynadacağını güman etmək olar. Bu, çətin ki, "Qarabağ"dan çox fərqlənsin. Yəni komanda hücuma meylli oyun sərgiləməli, müdafiədə etibarlı oynamalı, topa daha çox nəzarət etməlidir. Hər halda, illərdir "Qarabağ"da öyrəşdiyimiz bu sistemdə yalnız bəzi futbolçuların adlar dəyişə bilər. Məsələn, "Qarabağı"ın qapıçı Şahrudin Məhəmmədəliyev, mərkəz müdafiəçiləri Bədavi Hüseynov və Rahil Məmmədov, sağ cinah müdafiəçisi Maksim Medvedev, dayaq yarımmüdafiəçiləri Qara Qarayev və Coşqun Diniyev və hücumçu Mahir Mədətov Kosovo ilə matçda milli komandanın formasını geyinəcəklər.

Bu isə vaxtilə Kiyev "Dinamo"suna, paralel olaraq SSRİ yığmasına rəhbərlik edən Valeri Lobanovski təcrübəsinin yada salır. Yada salaq ki, karyerası ərzində üç dəfə mili komandaya rəhbərlik edən Valeri Lobanovski heyətə əsasən, Kiyev "Dinamo"sunun üzvlərini cəlb edirdi. 1986-cı il dünya çempionatında isə SSRİ yığmasının heyəti bütövlükdə rəhbərlik etdiyi klubun üzvlərindən ibarət idi. Bu səbəbdən də komanda öz qrupunda birinci yeri tutdu, 1/ 8-də isə sovet uşaqlarının hələ də yaxşı xatırladığı dramatik görüşdə(SSRİ Belçikaya 3:4 uduzdu) mübarizəni dayandırdı.

Qurban qardaşımız milliyə təyinat alanda, Lobanovski nümunəsi haqda çox yazılıb. Bir daha yada salmaqda fayda var ki, indi heç bir məşqçi bu cür yükün altına girməyə risk etmir. Qurban Qurbanovun milliyə niyə rəhbərlik etməyə razılaşmasının min səbəbi haqda yazılıb, bu təyinatın əleyhinə olanlardan biri də bəndəniz olub. Amma Qurban Qurbanovun min birinci səbəb odur ki, adam həm də millət üçün nəsə etmək istəyir, demək həm də dəstəyə layiq oğlandır.

Bu Qurban Qurbanovun milli komandada ilk ciddi sınağıdır. Allah utandırmasın...

**❑ Nazim SABİROĞLU,**
**"Yeni Müsavat"**







YENİ MÜSAVAT

Son səhifə

N 188 (7077) 7 sentyabr 2018



# Həftədə 150 dəqiqə gəzintiyə həsr olunmalıdır

**Dünyada 1 milyard 400 milyondan çox yetkin adam yetərincə idman etmədiyi üçün ölümcül xəstəliyə tutula bilər. Belə bir xəbərdarlıqla Ümumdünya Səhiyyə Təşkilatı çıxış edib. Qurum son 20 ilə yaxın müddətdə dünyada adamların hərəkətlilik səviyyəsində dəyişiklik olmadığını da vurğulayır. ÜST tövsiyə edir ki, hər bir yetkin şəxs həftədə azı 150 dəqiqə "orta gərginlikli" idman, məsələn, sürətli yürüş, üzgüçülük, yaxud velosiped sürməklə məşğul olsun. Yaxud bunu həftədə 75 dəqiqə "yüksək gərginlikli" fəaliyyətlə - qaçış, komanda idman növləri ilə əvəzləmək olar.**

Araşdırma zamanı 2016-cı ildə dünyanın 168 ölkəsində 1,9 milyon nəfərin fəallığı öyrənilib. Tədqiqatçılar üzə çıxarıblar ki, 2001-ci ildən bəri dövlətin saysız səhiyyə təşəbbüslərinə baxmayaraq, fiziki aktivlik səviyyəsində yaxşılaşma baş verməyib.

Dünyada 1,4 milyard nəfərin yetərincə aktiv olmadığı ortaya çıxıb.

# Gözləri əvəzləyəcək implant hazırlanır

**ABŞ-ın Minnesota Universitetinin alimləri ilk dəfə olaraq, gözün üçölçülü strukturunun əldə edilməsinə nail olublar. "Trend"in məlumatına görə, struktur torlu qişanın işini təqlid edir və implantla birlikdə işləyir - beyinə təsvir haqqında siqnalları ötürən torlu qişa hüceyrələri üçün görülən təsvir elektrik impulslarına çevrilir.**

Qeyd olunur ki, alimlər yarımkürə əsasla işləməyə başlayıblar. Onu üçölçülü printerdən istifadə edərək, tərkibində gümüş zərrəcikləri olan mürəkkəblərlə örtüblər. Onların üzərində yarımkeçirici polimer materiallardan yaradılmış və işığı elektrikə çevirən fotodiodlar yerləşdirilib. Bu metoddan istifadə etdikdə bütün strukturun çap olunması prosesinə təxminən 1 saat sərf olunur.



Gələcəkdə alimlər ötürülən informasiyanın keyfiyyətini yüksəltmək üçün işıq reseptorlarının sayını artırmağı planlaşdırırlar.

# İnsanın baş beyin qabığı onun populyar olub-olmayacağını müəyyən edir

**ABŞ alimləri tədqiqat apararaq bəzi insanların hansı səbəbə görə digər insanlardan daha çox diqqət cəlb etməsini öyrənmək istəyiblər. Tədqiqatçılar əsas kimi insanın sosial şəbəkələrdə özünü aparmasını götürüblər. Eksperiment iştirakçıları insanları fotoşəkil ilə qiymətləndirən zaman onların beyini baş-beyinin daha fəal hissələrini müəyyənləşdirən funksional maqnit-rezonans tomoqrafiyası metodu ilə öyrənilib. Məlum olub ki, insanların digərlərini populyar kimi qəbul etməsinə baş-beyin qabığında olan xüsusi neyron qiymətləndirmə sistemi cavabdehdir. Sistem hətta bu və ya digər insanların ətrafdakılar üçün onların özlərini cəlbedici hesab etməsələr belə cəlbedici olmasını müəyyənləşdirir.**

Neyron qiymətləndirmə sistemi haqqında məlumatlar başqa insanların statusu barədə təsəvvürün bizim davranışımıza necə təsir göstərməsini anlamağa imkan verir.





# Toyundan 2 saat sonra öldü

**Böyük Britaniya sakini toyundan iki saat sonra dünyasını dəyişib. Bu haqda "Daily Mail" nəşri yazıb. Xəbərə görə, Denni Emsli və onun nişanlısı 17 avqustda evləniblər. Toy ölkənin cənubundakı şəhərlərdən birində keçirilib. Tədbirdə cütlüyün 80-ə yaxın dostu və qohumu iştirak edib. 23.30 radələrində Denni hoteldəki otaqlarına qalxıb. Amma Kler həmin vaxt əyləncədə qalıb. Bir saat sonra gəlin hotel otağına qalxıb ki, ərinin necə olduğunu görsün. Həmin vaxt bəy sağ idi. Amma 1.30 radələrində gəlin yenidən otağa daxil olanda ərinin ölmüş olduğunu görüb. Təzə gəlin dərhal otaqdan çıxıb və kömək istəməyə başlayıb. Amma həkimlər onu xilas edə bilməyib.**

Dünyasını dəyişən bəyin 37 yaşı olub. Ailənin dostları deyir ki, kişi tamamən sağlam olub. Polis onun ölümünü şübhəli kateqoriyasında araşdırmır. 35 yaşlı dul gəlin öz facebook səhifəsində toy şəkillərini paylaşaraq, əri olmadan necə yaşayacağını təsəvvür etmir.




**QOÇ** - İlin-günün bu vaxtında romantik duyğulara qapılmaq sizə yalnız zərər verə bilər. Şairanə düşünməkdənsə reallığa uyğun addım atın ki, uğurlarınız yaxınlaşsın. Səhhətinizi də qoruyun.

**BUĞA** - Ulduzlar bir neçə gərgin situasiya ilə rastlaşacağınızı bildirir. Bu sətirləri ona görə yazırıq ki, qarşısını alasınız. Çətin də olsa, təmkin göstərin, oturaq işlərə aludə olun.

**ƏKİZLƏR** - Neçə vaxtdan bəri donub qalan planları həyata keçirmək üçün bu təqvimdən maksimum yararlanın. Bu istiqamətdə ümid etdiyiniz və gücü çatan adamlara da müraciət edə bilərsiniz.

**XƏRÇƏNG** - Atalarımızın dediyi "işim daşdan çıxır" ifadəsi bu təqvimdə sizin bürcə daha çox uyğun olacaq. Odur ki, daşdan iş çıxarmaqdansa, istirahətə üstünlük verin. Mübahisələrdən isə qaçın.

**ŞİR** - Mənfi yüklü Ayın bürcünüzdə mövcud olması səhhətinizə mənfi təsir göstərə bilər. Lakin bu fəsadın fəaliyyət prinsipinə və ya iş planınıza hər hansı maneəsi olmayacaq. Əksinə, gücünüzü ortalığa qoyun.

**QIZ** - Analitik zəkanızı işə salın. Nə qədər enerjiniz var, hamısını fəaliyyətə yönəldin. Sədaqətli və təcrübəli insanları özünüzdən uzaqlaşdırmayın. Bu gün uzaq yola çıxmayın.

**TƏRƏZİ** - Astroloji göstəricilər bu təqvimi daha çox münasibətlərin tənzimlənməsinə yönəltməyi tövsiyə edir. Hətta buna görə fəaliyyətə də ara vermək olar. Axşam qonaq getməyə dəyər.

**ƏQRƏB** - Nəhayət ki, neçə aydan bəri ora-bura vurnuxmağınız öz nəticəsini verməyə başlayır. Odur ki, hər cür dedi-qodudan, cəfəng söhbətlərdən uzaqlaşıb perspektivli işlərlə məşğul olun.

**OXATAN** - Ötən günlərdəki tövsiyəmizi bu günə də şamil edirik: ətrafınızda olanlarla qərəzsiz davranın. Əks halda tənhalığa mübtəla ola bilərsiniz. Axşam bir neçə yenilik gözlənilir.

**OĞLAQ** - Qarşınızda duran bu təqvimi daha çox neytral şəkildə başa vurmağa çalışın. Riskə ehtiyac yoxdur. Yaxşı olar ki, maddi sıxıntılarınızı aradan qaldırmağın yollarını tapasınız.

**SUTÖKƏN** - "Dünya həyatı bir körpüdür, bu körpünü təmir etməyə vaxt itirməyin, sadəcə tez ötüb keçin!". Peyğəmbərimizin (s) bu sözlərinə əməl edin. Dünyanı düzəltmək sizlik deyil.

**BALIQLAR** - Ümumi mənzərə neqativ deyil. Bu isə nəzərdə tutduğunuz işləri normal şəkildə başa çatdıracağınızdan xəbər verir. Tənbəllik etməyin, yeni işgüzar əlaqələrə həvəs göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 19 uşaq klassik poeziyanı bilmədi və döyüldü

Çinin Hefey şəhərində müəllim şagirdləri klassik poeziyanı yaxşı bilmədiklərinə görə döyüb. Bu haqda lenta.ru saytı "Daily Mail"ə istinadən yazıb. İnsident 1 sentyabr tarixində baş verib. Müəllim şagirdləri lövhə qarşısına çağırıb və şeiri əzbər yaza bilməyənlərin üzünə şillə vurub. Bu məsələyə görə 20 şagird cəzalandırılıb. Dərsdə oturan şagirdlərdən biri bu cəzanı mobil telefonla çəkib və internet vasitəsilə yayıb. Bundan sonra müəllim müvəqqəti olaraq işdən azad edilib. Martda xəbər verilmişdi ki, Amerikanın təşkilatlarından biri məktəblərdə şagirdlərin cəzalandırılmasına qarşı reklam kampaniyasına başlayıb. Amerikanın 19 ştatında müəllimlərə uşaqları vurmağa icazə verilib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.